

## Qırğız politoloq: "Hamı çox gözəl bilir ki, Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir"

6

# Prezident İlham Əliyevin İƏT-in XV Zirvə Toplantısında iştirakı dünya mətbuatının diqqət mərkəzindədir


Yeni Şafak DÜNYA
Manşet Koronavirüs Gündem Dünya Spor Ekonomi Teknoloji Hayat Ramazan Düşünce Günlüğü
Ortadoğu Zeytin Dalı Harekatı Avrupa Amerika Asya ABD Seçimleri Afrika Antarktika Okyanusya

ASYA

**Cumhurbaşkanı Erdoğan Azerbaycan Cumhurbaşkanı Aliyev ile görüştü**

**Cumhurbaşkanı Recep Tayyip Erdoğan, Türkmenistan'ın başkenti Aşkabat'ta Azerbaycan Cumhurbaşkanı İlham Aliyev ile bir araya geldi.**

Abone Ol · Google News · Haber Merkezi · 28 Kasım 2021, 18:06 · Son Güncelleme: 28 Kasım 2021, 18:46 · İHA

Cumhurbaşkanı Erdoğan ile Azerbaycan Cumhurbaşkanı İlham Aliyev

ÖNERİLEN VİDEO

Skip Ad

Advertisement: 0:38

Türkmenistandaki Cumhurbaşkanı Erdoğan ile Aliyevin görüşmesinden görüntüler

Ekonomik İşbirliği Teşkilatı 15. Zirvesi sebebiyle

2

Səs
№ 220 (6420) 2 dekabr 2021-ci il. Qiyməti 40 qəpik

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkmənistana səfəri, İqtisadi Əməkdaşlıq Təşkilatının XV Zirvə Toplantısında iştirakı və keçirdiyi görüşlər, eləcə də mətbuata verdiyi açıqlamalar Gürcüstan mətbuatının diqqət mərkəzindədir.*

# Azərbaycan reallığı: Türk dünyasının siyasi-iqtisadi mərkəzi kontekstində

6




6



## "Yedinaya Rossiya" Partiyasının 20 illik yubileyinə həsr edilən videokonfransda təmsil olunub

Dekabrın 1-də Rusiyanın "Yedinaya Rossiya" Partiyasının 20 illik yubileyinə həsr olunan "XXI əsrin qlobal çağırışları: partiyalararası ölçü" mövzusunda videokonfrans keçirilib.

## DSX-nin hərbi helikopterinin qəzaya uğraması nəticəsində şəhid olan hərbi qulluqçular son mənzilə yola salınıb

4



Dövlət Sərhəd Xidmətinin (DSX) hərbi helikopterinin qəzaya uğraması nəticəsində şəhid olan hərbi qulluqçular dekabrın 1-də İkinci Şəhidlər xiyabanında son mənzilə yola salınıblar. Dəfn mərasimində DSX rəisi general-polkovnik Elçin Quliyev, Milli Məclis sədrinin müavini Adil Əliyev, müdafiə sənayesi naziri, Azərbaycanın Milli Qəhrəmanı Mədət Quliyev, ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev, Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov, digər rəsmi şəxslər, şəhidlərin yaxınları və ictimaiyyətin nümayəndələri iştirak ediblər. Əvvəlcə şəhidlərimizin xatirəsinə cənazə namazı qılınıb, onların ruhuna dualar oxunub.

## Qarabağdakı erməni "bayraqlar"ı yığışdırılır - Azərbaycan başqa hansı tələblər qoyub?




## De Byazi millidə qalır? - AFFA açıqladı



*AFFA ilə müqaviləsi başa çatan milli komandamızın baş məşqçisi Canni De Byazinin yığmamızda qalacağı haqda məlumatlar yayılıb.*

# YENİ VİRUS YAYILIB: Azərbaycanda qapanmalar olacaq?

12






9

*Artıq 44 günlük müharibədən 1 ildən də çox vaxt keçməsinə baxmayaraq, Ermənistanla nə delimitasiya və demarkasiya məsələləri həll...*

## Sülh müqaviləsini gecikdirmək Ermənistanı çökdürür

16

## Uşaqlar infeksiyaya yoluxmamaq üçün bu qidaları mütləq qəbul etməlidir



"Uşaqlar və yaşlılar infeksion xəstəliklərdə həmişə risk qrupuna daxildirlər. Amma indi elə bir vaxta gəlib çıxmışıq ki, gənclər də risk qrupundadır.



## DİQQƏT: Gələn il uşaqpulu veriləcək?

7

*"Gələn il üçün uşaqpulu verilməsi barədə onu deyə bilərəm ki, hazırda dövlət büdcəsində 3 milyard manatlıq bir kəsr nəzərdə tutulur.*



## "Fransa kiçik bacısı olan Ermənistandan maşa kimi istifadə edir"

12

*"Fransanın mövqeyi Azərbaycan üçün, Azərbaycanın ictimaiyyəti üçün yeni deyil.*

# Avropa İttifaqı-Azərbaycan əlaqələri genişlənir



## Prezident İlham Əliyev Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsini qəbul edib

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 1-də Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Toivo Klaarı qəbul edib. Toivo Klaar Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin salamlarını dövlətimizin başçısına çatdırdı. Prezident İlham Əliyev Şarl Mişelin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Avropa İttifaqı Şurasının Prezidentinə çatdırmağı xahiş etdi.***

Görüşdə Avropa İttifaqı-Azərbaycan əlaqələrinin müxtəlif aspektləri, Cənubi Qafqazda əməkdaşlıq perspektivləri, postmünaqişə vəziyyəti və Ermənistan-Azərbaycan sərhədində noyabr ayında baş vermiş gərginliklə bağlı məsələlər müzakirə edildi.

Söhbət zamanı, həmçinin bu ay Brüsseldə keçiriləcək Şərq Tərəfdaşlığı Sammitinin gündəliyinə dair fikir mübadiləsi aparıldı. Toivo Klaar helikopter qəzası nəticəsində hərbi qulluqçuların həlak olması ilə bağlı dövlətimizin başçısına başsağlığı verdi. Prezident İlham Əliyev başsağlığına görə təşəkkür etdi.

# YAP "Yedinaya Rossiya" Partiyasının 20 illik yubileyinə həsr edilən videokonfransda təmsil olunub





***Dekabrın 1-də Rusiyanın "Yedinaya Rossiya" Partiyasının 20 illik yubileyinə həsr olunan "XXI əsrin qlobal çağırışları: partiyalararası ölçü" mövzusunda videokonfrans keçirilib.***





YAP mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Asiya, Avropa, Afrika və Latın Amerikası ölkələrinin aparıcı siyasi partiyalarının rəhbər şəxslərinin qatıldıqları tədbirdə Yeni Azərbaycan Partiyası Sədrinin müavini, Azərbaycan Respublikası Baş nazirinin müavini Əli Əhmədov çıxış edib.

Əli Əhmədov əvvəlcə Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin yubiley münasibətilə "Yedinaya Rossiya" Partiyasının sədri, Rusiya Federasiyası Təhlükəsizlik Şurasının sədrinin müavini Dmitri Medvedevə ünvanladığı təbrik məktubunu səsləndirib.

Videokonfransda çıxış edən Ə.Əhmədov qlobal təhlükələrə qarşı mübarizənin ən səmərəli yolunun beynəlxalq əməkdaşlıq çərçivəsində olduğunu qeyd edib. Onun sözlərinə görə, XXI əsrin qlobal çağırışlarına münasibətdə partiyalararası dialoq zəruri konsensusa və beynəlxalq əməkdaşlığa nail olmaq üçün ən yaxşı vasitə ola bilər.

COVID-19 pandemiyası ilə mübarizə sahəsində Azərbaycanda yetkin əhalinin 80 faizinin peyvənd olunduğunu diqqətə çatdıran partiya Sədrinin müavini Azərbaycanın işğaldan azad olunan ərazilərində aparılan bərpa, yenidənqurma və regionda daimi sülhün təmin olunması istiqamətində görülən işlərdən geniş bəhs edib. Qeyd edək ki, videokonfransa YAP Mərkəzi Aparatının 20 nəfər əməkdaşı qoşulub.

# Almaniya telekanalının saytı Soçi görüşündən yazıb


Mittwoch, 1. Dezember 2021 11:26 Uhr Frankfurt | 10:26 Uhr London | 05:26 Uhr New York | 19:26 Uhr Tokio

ntv RESSORTS SPORT BÖRSE WETTER TV VIDEO AUDIO DAS BESTE LIVE

POLITIK

Gespräche mit Putin

Armenien und Aserbaidschan nähern sich an

Putin empfing den Präsidenten von Aserbaidschan, Alijew (r), und den Ministerpräsidenten von Armenien, Paschinian.

VIDEOS

FRÜHSTART 01.12.2021 09:11 | 07:21 min

Aschenberg-Dugnus im "Frühstart" "Südliche Bundesländer hätten längst handeln müssen"

PANORAMA 01.12.2021 07:51 | 02:14 min

Scholz will Impfpflicht für alle Diese Corona-Regelverschärfungen sind geplant

***Almaniyanın "N-TV" telekanalının saytı Azərbaycan Prezidenti İlham Əliyev, Rusiya Prezidenti Vladimir Putin və Ermənistan baş naziri Nikol Paşinyan arasında Soçidə keçirilmiş üçtərəfli görüş barədə məqalə dərc olunub.AZƏRTAC xəbər verir ki, məqalədə son illərin Qarabağda şiddətli döyüşlərin baş verməsi ilə xarakterizə olunduğu bildirilir. Həmçinin qeyd olunur ki, hazırda Rusiya Prezidenti Vladimir Putin Azərbaycanla Ermənistan arasında sülhün bərqərar olması üçün vasitəçilik səyləri göstərir. Vurğulanır ki, münaqişə tərəfləri olmuş ölkələr hazırda mübahisəli məsələləri həll etmək, o cümlədən qarşılıqlı olaraq sərhədlərini müəyyən etmək niyyətindədirlər.***

Məqalədə qeyd olunur ki, Ermənistan və Azərbaycan liderləri iki ölkə arasında gərginliyi azaltmaq barədə razılığa gəliblər. Ermənistanın baş naziri Nikol Paşinyan və Azərbaycan Prezidenti İlham Əliyev bu məqsədlə Soçi şəhərində Rusiya Prezidenti Vladimir Putinlə görüşərək danışıqlar aparıblar. Danışıqlardan sonra hər iki lider görüşün nəticəsini müsbət dəyərləndirib. Prezident Putin əsas hesab edilən bir sıra məqamlarda razılığa gəlindiyini vurğulayıb. Onun sözlərinə görə, Cənubi Qafqaz respublikaları sərhədlərinin qarşılıqlı olaraq müəyyənləşdirilməsinə başlamaq istəyirlər. Bundan əlavə, dövlətlər arasında nəqliyyat əlaqələri yenidən bərpa olunmalı və humanitar məsələlər barədə müzakirələr aparılmalıdır.

## Bu qələbənin müəllifi Prezident İlham Əliyevdir



# Soçi görüşü: Azərbaycan diplomatiyasının növbəti qələbəsi



Bu gün Azərbaycanın əldə etdiyi uğurlar göz önündədir. Qarşılıqlı səfərlər və görüşlər fonunda bu əlaqələr daha da möhkəmlənir, yeni çalarlar əlavə olunur. Xüsusilə də, bu gün ölkə və dünya mətbuatının əsas müzakirə mövzularından biri Rusiya Prezidenti Vladimir Putin, Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyan arasında Soçidə keçirilən üçtərəfli görüşdür.

Noyabrın 28-də Rusiyanın "Rossiya-1" telekanalında efirə gedən "Kreml. Putin. Moskva" verilişində Rusiya Federasiyasında işgüzar səfərdə olarkən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevdən Soçi hava limanında bu veriliş üçün alınan müsahibə zamanı dövlət başçımız görüşün çox böyük əhəmiyyət kəsb etdiyini deyib: "Biz Azərbaycanda bunu çox müsbət qiymətləndiririk. Mən bunu bu gün görüşdə də demişəm. Rusiya Ermənistan ilə Azərbaycan arasında münasibətlərin normallaşması üçün çox mühüm rol oynayır. Görüşün yekunlarına əsasən qəbul etdiyimiz, nəqliyyat şəbəkələrinin açılması, delimitasiya üzrə komissiyanın işə hazırlaşması üçün atılan addımlar barədə Birgə Bəyanat buna dəlalət edir. Azərbaycan bütün bu məsələləri dəfələrlə irəli sürüb və Rusiya bunu həmişə dəstəkləyib. Buna görə, bugünkü görüş də çox böyük əhəmiyyət kəsb edir".

### Üçtərəfli görüş Azərbaycanın qələbəsinin, Ermənistanın bundan sonra sülh müqaviləsindən yayına bilməyəcəyinin təsdiqi oldu

Bəli, üçtərəfli görüş bir daha Azərbaycanın qələbəsinin, Ermənistanın isə məğlub dövlət kimi bundan sonra da Bəyanatda nəzərdə tutulan müddəalardan yayına bilməyəcəyinin təsdiqi oldu. Görüş zamanı Prezident İlham Əliyev Rusiyanın səylərini yüksək qiymətləndirərək bildirdi ki, Azərbaycan savaşdan ötən bir il ərzində müharibənin fəsadlarının aradan qaldırılması və kommunikasiyaların açılması məsələlərində maksimal konstruktivlik nümayiş etdirib. 2020-ci il 10 noyabr Bəyanatında əksini tapmış digər məsələlər artıq icra olunub. Ölkəmiz dəfələrlə rəsmi şəkildə Azərbaycan ilə Ermənistan arasında sərhədlərin təxirəsalınmaz delimitasiyasının vacibliyini bəyan edib. Azərbaycan qarşıdurmaya son qoymaq, bir-birinin ərazi bütövlüyünü və suverenliyini tanımaq və gələcəkdə qonşu kimi yaşamağa öyrənmək üçün Ermənistana sülh razılaşması üzərində işə başlamağı təklif edib. Prezident İlham Əliyev üçtərəfli görüşdən sonra mətbuata bəyanatında bildirmişdir ki, Ermənistanla Azərbaycan arasında müharibəyə son qoymuş məlum üçtərəfli Bəyanatın qəbul edilməsindən ötən bir ili bütövlükdə müsbət səciyyələndirə bilərik. Başqa sözlə desək, Soçi görüşündə imzalanan Bəyanat prinsip etibarı ilə 10 noyabr və 11 yanvar bəyanatlarının məntiqi davamıdır.

### Soçidə Azərbaycanın əldə etdiyi diplomatik nailiyyətlər Zəngəzur dəhlizinin artıq bir reallıq olduğunu göstərir

Dövlətimizin başçısı dəfələrlə bəyan etdi ki, biz Zəngəzur dəhlizini açacağıq - istər danışıqlarla, istərsə güc yolu ilə. Bu il noyabrın 16-da Ermənistanın təxribatına verilən layiqli cavab və Soçidə Azərbaycanın əldə etdiyi diplomatik nailiyyətlər Zəngəzur dəhlizinin artıq bir reallıq olduğunu göstərir. Xüsusilə, qəbul olunan Bəyanatda Rusiya Prezidentinin dəfələrlə "dəhliz" ifadəsini işlətməsi, "Qarabağ" ifadəsinə yer verilməməsi, Ermənistan tərəfinin hər zaman iddia etdiyi əsirlər və ya girovlar məsələsinə toxunulmaması, sərhədlərin delimitasiya və demarkasiyasına çağırışlar edilməsi, bütövlükdə müzakirə olunan məsələlər Azərbaycanın mövqeyini tam əks etdirir.

### Dövlət başçısı: "Zəngəzur dəhlizi reallığa çevrilir"

Prezident İlham Əliyev Aşqabadda İƏT-in XV Zirvə toplantısında çıxışında bildirib ki, bu yeni nəqliyyat infrastrukturu Şərq-Qərb və Şimal-Cənub dəhlizlərinin önəmli hissəsinə çevriləcək: "2020-ci ildə Azərbaycan ərazilərinin Ermənistan tərəfindən 30 ilə yaxın davam edən işğalına son qoydu. 44 günlük Vətən müharibəsi Ermənistanın məğlubiyyəti və 2020-ci il noyabrın 10-da kapitulyasiya aktını imzalamasına məcbur edilməsi ilə nəticələndi. Azərbaycan özü öz ərazi bütövlüyünü bərpa etdi. Azərbaycan özü BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi, Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş ərazilərindən dərhal, tam və qeyd-şərtsiz çıxarılmasını tələb edən dörd qətnamənin icrasını təmin etdi". Dövlət başçısı onu da vurğulayıb ki, Zəngəzur dəhlizi reallığa çevrilir: "Bu gün deyə bilərəm ki, Zəngəzur dəhlizi reallığa çevrilir. Bu yeni nəqliyyat infrastrukturu Şərq-Qərb və Şimal-Cənub dəhlizlərinin önəmli hissəsinə çevriləcək. Əminəm ki, İƏT-ə üzv ölkələr bu dəhlizdən istifadə edəcəklər".

### Bəyanatda "Dağlıq Qarabağ münaqişəsi" ifadəsi və Minsk Qrupunun adı qeyd edilməyib

Bir məsələyə xüsusi olaraq diqqət çəkmək lazımdır ki, Soçi görüşündə imzalanan Bəyanatda "Dağlıq Qarabağ münaqişəsi" ifadəsinə rast gəlinmir. Eyni zamanda, ATƏT-in Minsk qrupunun da adı çəkilmir. Bu, artıq həm Dağlıq Qarabağ münaqişəsinin, həm də 1992-ci ildə problemin həllində vasitəçilik missiyasını yerinə yetirmək məqsədilə yaradılan, amma 28 illik fəaliyyəti dövründə missiyasının nədən ibarət olduğunu tam dərk etməyən, neytrallığı qorumayaraq Ermənistana dəstək funksiyasını yerinə yetirən, qısaca desək, fəaliyyətsiz Minsk qrupunun tarixdə qaldığını təsdiqləyir.

Ulu Öndər Heydər Əliyev Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişənin həllini şərtləndirən amillərdən bəhs edərkən daim bildirirdi ki, dövlətin qətiyyəti, xalqın iradəsi, beynəlxalq dəstək əsasdır. Dövlətimizin qətiyyətli mövqeyi hər kəsə məlumdur. Xalqımız daim Ali Baş Komandanın hücum əmrini gözləyirdi. Bir qarış torpağımızı belə, düşmənə verməyəcəyimiz nəinki dövlət başçısının bəyanatlarında, eyni zamanda, xalqımızın Ali Baş Komandana ünvanlanan məktublarında da öz əksini tapırdı. Dövlətimiz, xalqımız bir il deyil, iki il deyil, 30 il sülh danışıqlarının nəticəsini gözlədi. Amma hər dəfə Ermənistana beynəlxalq dəstək gördükdə sərt münasibətini bildirsə də, bu dəstəyə müxtəlif adlar altında haqq qazandırdılar. Azərbaycanı yalanları ilə sülh danışıqlarının nəticə verəcəyinə inandırmağa çalışan həmin dövlətlər, qurumlar da bu gün bu düşüncələrinin nə qədər yanlış olduğunu gördülər. Ermənistanın baş naziri planlarını həyata keçirmək üçün sentyabrın 27-də hərbi təxribata başlayanda belə bir qarşılıq görəcəyini düşünmürdü. Azərbaycan Ordusu Ermənistanı çökdürdü, hərbi texnikalarını məhv etdi, qənimət kimi götürdü. Azərbaycan Ordusu 44 gündə işğalçı dövlətə tarixdə heç zaman unutmayacağı dərsi verdi. Aciz duruma düşən Paşinyanın Vətən müharibəsinin getdiyi 44 gündə üz tutmadığı, yalvarmadığı dövlət, beynəlxalq təşkilat qalmadığını xatırlamaq kifayətdir. "Dağlıq Qarabağın müstəqilliyinin" tanınması üçün yalvarışlar etdi. Hansı ki, münaqişə tarixə qovuşduğu halda Fransa "qondarma Dağlıq Qarabağ Respublikası"nın müstəqilliyinin tanınmasını gündəmə gətirməklə Ermənistana 30 il işğal dövründə olduğu kimi, müharibədən sonra da dəstəyini əsirgəmədiyini nümayiş etdirdi. Bütün bunlar onu deməyə əsas verir ki, ATƏT-in Minsk qrupunun həmsədrləri Ermənistanı Azərbaycana qarşı hərbi təcavüzə son qoymağa məcbur etmək üçün qətiyyətli addımlar atsaydılar, onda üzərlərinə düşən vəzifələrin icrasına nail ola bilərdilər. Tarixi bilməyən, hər zaman dövlət başçısı İlham Əliyevdən tarix və hüquq dərsi alan Ermənistanın baş naziri 44 gündə Azərbaycan Ordusunun qəhrəmanlığı sayəsində Qarabağın Azərbaycanın əzəli torpağı olduğunu etiraf etdi. Və bu etiraflar Soçi görüşündə, həmçinin görüşdən əvvəl Nikol Paşinyanın onlayn mətbuat konfransında da səsləndi.

Ümumilikdə Soçi görüşü Azərbaycanın diplomatik qələbəsidir. Bu qələbənin müəllifi Prezident İlham Əliyevdir. Və bu reallıqlar kontekstində hələ də bəzi qüvvələr işğalçı Ermənistanın təxribatlarına, sərsəm bəyanatlarına dəstək verərək guya problemin həll edilmədiyi, status məsələsinin gündəmdə olduğu barədə əsassız müzakirələrə yol açır, bununla da hadisələrin gedişatına təsir etməyə çalışırlar. Unudulmamalıdır ki, Azərbaycan münaqişənin həlli prosesində daim sülh siyasətinə üstünlük verdiyi üçün 30 ilə yaxın bir müddət ərzində səbrlə danışıqlara davam etdi. Bu danışıqların bir nəticəsi olmadıqda 44 gün kifayət etdi ki, işğalçı Ermənistana layiq olduğu dərs verilsin. Bununla da Azərbaycan beynəlxalq hüquqa əsaslanan mövqeyini bütün dünyaya təqdim etdi. Bu gün reallıq başqa cürdür. Ermənistan qəbul etməsə də kapitulyasiyasını bəyan edib. Çünki Azərbaycan öz haqlı, beynəlxalq hüquqa əsaslanan prinsiplərini əsas götürərək diqtə edən tərəfdir, heç bir şərt qoyulmadan Azərbaycan Prezidentinin mövqeyi bu sənəddə əksini tapıb. Bir sözlə, Soçi görüşü Azərbaycan Prezidenti İlham Əliyevin intellektual üstünlüyü ilə keçən növbəti diplomatik uğurumuzdur.

Əgər Paşinyana verilən növbəti şansdan istifadə etməsə: Ya xoşluqla sülhyaratma prosesinə töhfə verəcək, ya da...O zaman "Dəmir yumruq" işə düşə bilər. Bu, o "Dəmir yumruq" əməliyyatıdır ki, Ermənistanı müharibə meydanında darmadağın etdi, Bakının qazandığı böyük üstünlüklər İrəvan üzərində də güclü siyasi təsir rıçaqları yaratdı. İndi Paşinyan Ermənistanın müharibənin nəticə olan itkilərindən ders çıxarmasa, başında ikinci "Dəmir yumruq" əməliyyatını görəcək. Qısası, Soçi görüşü nəticəsiz qalsa, Azərbaycan güclü əlinin cüzi bir hissəsi ilə Ermənistana növbəti dərs verəcək.

**RƏFİQƏ HÜSEYNOVA**



# DSX-nin hərbi helikopterinin qəzaya uğraması nəticəsində şəhid olan hərbi qulluqçular son mənzilə yola salınıb









Dövlət Sərhəd Xidmətinin (DSX) hərbi helikopterinin qəzaya uğraması nəticəsində şəhid olan hərbi qulluqçular dekabrın 1-də İkinci Şəhidlər xiyabanında son mənzilə yola salınıblar.

Dəfn mərasimində DSX rəisi general-polkovnik Elçin Quliyev, Milli Məclis sədrinin müavini Adil Əliyev, müdafiə sənayesi naziri, Azərbaycanın Milli Qəhrəmanı Mədət Quliyev, ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev, Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov, digər rəsmi şəxslər, şəhidlərin yaxınları və ictimaiyyətin nümayəndələri iştirak ediblər. Əvvəlcə şəhidlərimizin xatirəsinə cənazə namazı qılınıb, onların ruhuna dualar oxunub. Sonra şəhidlərimiz son mənzilə yola salınıblar.

Şəhidlərin tabutları üzərinə salınan dövlət bayrağı onların ailələrinə təqdim edilib. Həlak olan hərbi qulluqçularımızın xatirəsinə yaylım atəşi açılıb. Daha sonra Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Qeyd edək ki, həlak olan hərbi qulluqçulardan üçü ailələrinin istəyi ilə doğulduqları ərazidə torpağa tapşırılıb. Polkovnik Füzuli Cavadov Zirə, kapitan Xəyyam Əliyev Əmircan qəsəbələrində, baş leytenant Fərid Nağıyev isə Beyləqan rayonunda dəfn ediliblər.

Noyabrın 30-da Dövlət Sərhəd Xidmətinin (DSX) Mİ-17 tipli helikopterinin təlim uçuşu yerinə yetirərkən qəzaya uğraması nəticəsində 14 hərbi qulluqçumuz həlak olub, 2 hərbi qulluqçu yaralanıb. Hadisə ilə əlaqədar Baş Prokurorluğun İstintaq İdarəsində Cinayət Məcəlləsinin 352.2-ci (uçuş və ya uçuşa hazırlıq qaydalarını pozma ehtiyatsızlıqdan iki və ya daha çox şəxsin ölümünə səbəb olduqda) və digər maddələri ilə cinayət işi başlanıb, aidiyyəti qurumların nümayəndələrindən ibarət istintaq qrupu yaradılıb.

# Volkan Aydemir: Soçi görüşündə Azərbaycan Prezidentinin danışıqlara qalib tərəf kimi qatılması hər birimizi qürurlandırdı



***Bütün dünyanın diqqətlə izlədiyi Soçi görüşü zamanı Azərbaycan Prezidenti İlham Əliyevin qətiyyətli duruşu, danışıqlara qalib tərəf olaraq qatılması hər birimizi bir daha qürurlandırdı. Danışıqlar zamanı Ermənistan tərəfi ilə sərhədlərin yenidən müəyyənləşdirilməsi ilə bağlı qəbul olunan qərar böyük nailiyyətdir. Azərbaycan qətiyyətli və düzgün siyasəti ilə tarixi sərhədlərini yenidən müəyyənləşdirmək istəyir ki, bu da onun təbii hüququdur. Burada diqqətçəkən əsas məqam isə odur ki, hər zaman olduğu kimi, bu görüşdə də Azərbaycan tolerantlıq, multikulturalizm və insan sevgisini bir daha sübut etdi.***

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Türkiyənin Kocaeli Derince Azərbaycan Evi Dərnəyinin rəhbəri Volkan Aydemir bildirib.

Danışıqlar zamanı beynəlxalq infrastrukturun yenidən qurulması, kommunikasiya sisteminin bərpasına vurğu edilməsinin Azərbaycanın uzun illər bölgədə sülhün bərqərar olması istiqamətində atdığı addımların nəticəsi kimi qiymətləndirən müsahib deyib: "Bu, böyük nailiyyətdir. Azərbaycan 30 il ərzində sülh, insanların birgə, firavan yaşaması üçün əlindən gələni edib. Soçi görüşü də bunu bir daha sübut etdi. Erməni tərəfinin Laçın dəhlizindən istifadəsi və Zəngəzur dəhlizinin açılması yalnız iki dövlətin deyil, dünyanın, o cümlədən bölgənin maraqları daxilindədir".

Bunun bütün türk dünyası üçün böyük addım olduğunu deyən V.Aydemir qeyd edib: "Cənubi Qafqazdakı Zəngəzur və Laçın dəhlizləri türk dünyası üçün mühüm tranzit yoludur. Bu dəhlizlər İpək yolu üzərində mühüm ticarət və sosial mərkəzlərdir. Bunu XVI-XVII əsrləri əhatə edən tarixi qeydlərdə də görmək olar. Onu da qeyd etmək istərdim ki, Rusiya Prezidenti Vladimir Putinin də sözügedən məsələləri dəstəkləməsi hər iki ölkənin, eləcə də bölgənin xeyrinə addım atılacağının göstəricisidir".

# "Bu, əhalinin sosial rifahına öz müsbət təsirini göstərəcək"



"Prezident İlham Əliyevin rəhbərliyi altında aparılan genişmiqyaslı islahatlar ölkəmizdə münbit investisiya mühiti formalaşdırıb. Təbii ki, hər bir investor bir ölkəyə investisiya yatırmağını düşünəndə ilk növbədə o ölkənin iqtisadiyyatının dayanıqlığını analiz edir. Azərbaycan iqtisadiyyatı makroiqtisadi sabitliyi və dinamik inkişafı ilə cəlbedicidir. Biz bilirik ki, iki ildir ki, qlobal pandemiyanın təsirlərindən dünya iqtisadiyyatlarında geriləmələr baş verib. Hətta bir çox inkişaf etmiş ölkələrin iqtisadiyyatlarına göstərdiyi pandemiya ilə bağlı görülmüş tədbirlərin mənfi təsirindən baş vermiş azalmalar bu gün də davam etməkdədir". Bu fikirləri SİA-ya açıqlamasında Milli Məclisin deputatı Azər Badamov deyib.

Deputatın sözlərinə görə, ölkəmizin iqtisadiyyatı 2020-ci ildə 4 % azalsa da, 2021-ci ildə əksinə 4%-dən çox artmağa başlayıb: "Təbii ki, bu birbaşa aparılan islahatlar və pandemiyanın təsirlərini azaltmaq üçün həyata keçirilən dövlət dəstəyi proqramların effektivliyi sayəsində nail oluruq. Gələn ildə də iqtisadiyyatımızda artımların olacağı gözlənilərdir. Həm də milli valyutamız region ölkələrin valyutaları ilə müqayisədə daha dayanıqlı valyuta hesab olunur. Ölkəmizdə aparılan davamlı və düşünülmüş islahatlar sayəsində son 18 ildə ÜDM 3 dəfə artıb, xarici dövlət borcumuz strateji valyuta ehtiyatlarımızdan 6 dəfə aşağı olmasına gətirib. İnvestorların diqqət yetirdiyi digər bir məqam isə Dünya Bankının "Doing Busines və Davos İqtisadi Forum"ların hesabatların gööstəriciləridir. Doing Buzines hesabatında Azərbaycan 190 ölkə arasında 28-ci yerdə qərarlaşır. Bu o deməkdir ki, bu hesabatda Azərbaycan bir çox inkişaf etmiş ölkələri də qabaqlayıb. Həm də ölkə iqtisadiyyatına qoyulan investisiyaların həcmi də investorları maraqlandırır. Bu günə qədər Azərbaycan iqtisadiyyatına 280 milyard dollardan çox investisiya qoyulub ki, bunun da yarısı xarici investisiyalardır. Digər bir məsələ isə Davos İqtisadi Forumunun hesabatıdır. Bu hesabatda da bir çox indikatorlar üzrə Azərbaycan qabaqcıl yerlərdə sıralanır. Məsələn, əhalinin enerjiyə əlçatanlıq əmsalına görə dünyada 2-ci yerdə, dəmir yolu infrastrukturunun səmərəliliyinə görə 11, hava limanların səmərəliliyinə görə 12, dəniz liman xidmətlərin səviyyəsinə görə 25, avtomobil nəqliyyatı infrastrukturunun keyfiyyətinə görə 27-ci yerlərdə sıralanırıq".

A.Badamov vurğulayıb ki, 44 günlük Vətən müharibəsində yaratdığımız yeni reallıq xarici investisiyaların daha geniş şəkildə cəlb edilməsi üçün yeni potensial üzə çıxarıb: "Bu, işğaldan azad olunmuş ərazilərimizdə mövcud və yenidən dirçəltməyinə ehtiyacı olan iqtisadiyyatın müxtəlif sahələridir. Xarici investorlara bu ərazilərimizdə də kapital qoyuluşu üçün imkanlar tətbiq edirik. Həm də Zəngəzur dəhlizinin reallığa çevrilməsi ölkəmizin investisiya cəlb ediciliyini artırır. Bu, həm ölkəmizin üzərindən daşınmaların həyata keçirilməsində, həm də işğaldan azad olunmuş ərazilərimizdə yaradılacaq yeni müəssisələrin məhsulların daşınmasında rentabellik səviyyəsini yüksəlməsində özünü göstərəcəkdir. Düşünürəm ki, yaxın gələcəkdə ölkə iqtisadiyyatımıza yeni investisiyalar cəlb olunmaqla yeni müəssisələr ərsəyə gələcək. Bu, da yeni iş yerlərinin yaranmasına töhfə verməklə əhalinin sosial rifahına öz müsbət təsirini göstərəcəkdir".

***Aysel Məmmədova***

# Prezident İlham Əliyevin İƏT-in XV Zirvə Toplantısında iştirakı dünya mətbuatının diqqət mərkəzindədir




***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkmənistana səfəri, İqtisadi Əməkdaşlıq Təşkilatının XV Zirvə Toplantısında iştirakı və keçirdiyi görüşlər, eləcə də mətbuata verdiyi açıqlamalar Gürcüstan mətbuatının diqqət mərkəzindədir. Belə ki, 24news.ge və interpress.ge informasiya portalları Azərbaycan Prezidentinin səfərini geniş işıqlandırıblar.***







Azərbaycan, gürcü, rus və ingilis dillərində yayılan materiallarda oxuculara Prezident İlham Əliyevin Türkmənistan, Türkiyə, İran Tacikistan və Pakistan liderləri ilə görüşü barədə məlumat verilir. Materiallarda Azərbaycanın bu ölkələrlə ikitərəfli və digər formatlarda əlaqələrinin inkişafı, eləcə də Zəngəzur dəhlizi barədə məlumatlar yer alıb.

Yəmənin "Əl Taməniyə Əl Yom" agentliyinin saytında və Əlcəzairin "Əl Hərir" portalında Türkmənistanın paytaxtı Aşqabad şəhərində keçirilən İqtisadi Əməkdaşlıq Təşkilatının (İƏT) XV Zirvə Toplantısı haqqında xəbərlər və fotomateriallar yayımlanıb.

Xəbərlərdə Azərbaycan Prezidenti İlham Əliyevin Zirvə Toplantısında çıxışının əsas məqamları və tədbirdə iştirak edən dövlət başçıları ilə görüşləri yer alıb. Ərəbdilli oxucuların diqqətinə çatdırılıb ki, Zirvə Toplantısının iştirakçıları torpaqların işğaldan azad olunması münasibətilə Azərbaycan Respublikasını təbrik edib, regionda yaranmış yeni reallığın davamlı sülhə, iqtisadi tərəqqiyə və Qafqaz regionunun inkişafına şərait yaradacağına əmin olduqlarını bildiriblər. Eyni zamanda, İƏT-ə üzv ölkələrə azad edilmiş ərazilərdə rekonstruksiya və bərpa layihələrinə investisiya qoymaq çağırışı edilib.

Materiallarda Zəngəzur dəhlizinin açılmasının təşkilata üzv ölkələr üçün də əhəmiyyətli olacağı ilə bağlı Azərbaycan və Türkiyə prezidentlərinin fikirləri də verilib.

Prezident İlham Əliyevin noyabrın 28-də Türkmənistanın paytaxtı Aşqabad şəhərinə səfəri, İqtisadi Əməkdaşlıq Təşkilatının (İƏT) XV Zirvə Toplantısında iştirakı və keçirdiyi ikitərəfli görüşlər, eləcə də dövlətimizin başçısının fəaliyyətinə dair digər mühüm məqamlar Türkiyə kütləvi informasiya vasitələri tərəfindən geniş işıqlandırılıb.

AZƏRTAC xəbər verir ki, Anadolu Agentliyi Azərbaycanın dövlət başçısının Aşqabad səfərini və ona bağlı təfərrüatları fərqli dillərdə təqdim edib. Azərbaycan, İran və Türkmənistan arasında imzalanan qaz sazişi də bu məlumatlar arasında mühüm xəbər kimi yer alır.

DHA xəbər agentliyi, "TRT Haber", "Haber Global", "TRT Avaz", "CNN Türk" telekanalları, "Sabah", "Milliyet", "Yeni şafak", "Vatan" qəzetləri və digər media quruluşlarında Prezident İlham Əliyevin Aşqabad səfəri mühüm tarixi hadisə kimi dəyərləndirilib.

Mövzu ilə bağlı xəbərlərdə Azərbaycanın xarici siyasətinin uğurlu nəticələrinə, iqtisadi sahədə qazandığı nailiyyətlərə toxunulur.

Türkiyə mediası Azərbaycan Prezidenti İlham Əliyevin Aşqabadda Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan, eləcə də İran Prezidenti Seyid İbrahim Rəisi ilə keçirdiyi ikitərəfli görüşlər barədə də türkdilli ictimaiyyətə geniş məlumat verib. Ümumiyyətlə, İƏT XV Zirvə Toplantısı və tədbir çərçivəsində görülən digər işlər Türkiyə mediası tərəfindən geniş işıqlandırılıb.















### Bakının, həqiqətən də, regional gücdən beynəlxalq gücə çevrilməsi faktoru özünü bir daha təsdiqləyir




# Azərbaycan reallığı: Türk dünyasının siyasi-iqtisadi mərkəzi kontekstində






***Azərbaycanın 44 günlük Vətən müharibəsində əldə etdiyi şanlı Zəfəri ölkəmizin yalnız iqtisadi imkanlarını deyil, həmçinin, siyasi diplomatik uğurlarını ön plana çəkməkdədir. Əbəs deyil ki, məhz Vətən müharibəsi başa çatdıqdan sonra regionun iqtisadi dirçəlişi ilə bağlı atılmağa başlayan qətiyyətli addımlar növbəti perspektivləri müəyyən etdi.***

ANALİTİK FAKTLAR

İşğaldan azad olunmuş ərazilərimizdə sıfırdan başlayan bərpa-inşaat işləri ilə yanaşı, artıq beynəlxalaq miqyaslı nəqliyyat-kommunikasiya reallıqlarının həyata keçirilməsi şərtləri də önəm kəsb etməyə başladı. Xüsusilə, türkdilli ölkələrlə əməkdaşlıq platformaları sözügedən mənada özünü daha çox nümayiş etdirir.

Yeri gəlmişkən, bir müddət əvvəl İstanbulda Türk Dövlətləri Təşkilatının toplantısı, ardınca isə Türkmənistanda İƏT-in XV Zirvə Toplantısında Mərkəzi Asiya dövlətlərinin Azərbaycanla həmrəylik nümayiş etdirmələri də deyilənləri kifayət qədər təsdiq edir. Bu baxımdan da, regionda siyasi-iqtisadi yeniliklərin baş verməsi prosesində yer alan türkdilli dövlətlərin Azərbaycana, eləcə də Azərbaycanın da onlar tərəfə olan sürətli inteqrasiyası özündə digər əhəmiyyətli məqamları ehtiva etdirməkdədir.

Sirr deyil ki, Azərbaycanın iqtisadi qüdrəti həm də onun regional və beynəlxalq miqyasdakı müstəqil, eləcə də balanslı fəaliyyətinə geniş zəmin yaradır. Bu baxımdan, ölkəmizin Türk Dövlətləri Təşkilatındakı maraqlarına iki mühüm aspektdən yanaşma etmək olar.

### 1. Simvolik və ideoloji faktor

Azərbaycan öz müstəqilliyini özünün türk kökləri və digər türkdilli ölkələrlə birləşmək, bir araya gəlmək, eyni ənənəvi amalları bölüşmək, milli özünüdərk dalğasında əldə edib. Ümumiyyətlə, Bakı üçün TÜRKSOY təşkilatında olmaq, daha sonra isə Türk Şurasında təmsil edilmək hər zaman əhəmiyyət kəsb edib. Təbii ki, özünə məxsus olan müstəqil dövlətçilik ideologiyasını və legitimliyini, xarici dünyaya çıxış əldə etməsini və özünü təsdiq etməsi üçün bu əhəmiyyətli faktordur.

### 2. Siyasi-strateji aspekt

Bəllidir ki, Azərbaycan həm coğrafi, həm də tarixi-mədəni planda Türkiyə və Mərkəzi Asiya ölkələrinin ortasında yerləşən məkandır və bu baxımdan, onun böyük Türk dünyasında özünəməxsus yeri və rolu mövcuddur. Bu kimi mövqe və siyasi cərəyan həm də onu isbat edir ki, Azərbaycan Cənubi Qafqazda həssas məkanda yerləşir və müxtəlif nəqliyyat-kommunikasiya yolları vasitəsi ilə Avropa ilə Asiyanın kəsişmə nöqtəsindədir. Bu nöqtə bütövlükdə dünyaya iqtisadi impuls verən mühüm gerçəklik kimi dəyərləndirilə bilər.

### Azərbaycan dünyanın həm müsəlman, həm çağdaş avropalı, həm də türk, eyni zamanda, Şərq və postsovet ölkəsi qapısıdır

Son dövrlərə qədər Bakının qarşısında dayanan bir nömrəli məsələ Ermənistanla münaqişə vəziyyəti, həmçinin, Qarabağ problemi idi. Azərbaycanın xarici siyasətinin tərkib hissələrindən biri də, məhz bu faktorlar olub. 1994-cü ildə əldə olunmuş atəşkəsdən sonra Bakı addım-addım öz statusunu və rolunu istifadə edərək müxtəlif konfiqurasiyalarda və ölkələrin birləşdikləri təşkilatlarda yer almağa başladı. O cümlədən, Azərbaycan dünyanın həm müsəlman, həm çağdaş avropalı, həm də türk, eyni zamanda, Şərq və postsovet ölkəsi qapısıdır. Bu kimi mühüm xüsusiyyətlər, ilk növbədə, Azərbaycanı müxtəlif inteqrasiyalı birliklərdə özünü rahat, müstəqil, qətiyyətli siyasət aparmasına kifayət qədər şərait yaradır. Azərbaycanın Ermənistanın da üzv olduğu KTMT hərbi alyansında təmsil edilən türkdilli ölkələr tərəfindən birmənalı dəstək görməsi isə ayrıca məqamdır. Bu məqam Bakı üçün çox əhəmiyyətlidir. Təsəvvürünüzə gətirin, KTMT-nin üç dövləti Aşqabadda keçirilən Zirvə görüşünün yekun bəyanatında Azərbaycanı Qarabağ Zəfəri ilə bağlı rəsmi şəkildə təbrik etdi. Belə uğurları isə hər ölkə qazana, əldə edə bilmir - Azərbaycan isə bax, bu səddi də aşmağa müvəffəq oldu.

### Zəngəzur dəhlizi - Qazaxıstan, Özbəkistan, Qırğızıstan və artıq Türkmənistan Azərbaycanla birlikdə potensial iqtisadi bağlılıq yaratmaq gücündədirlər

Bu gün həm də Turan ideologiyası ətrafında cərəyan edən hadisələr açıq olmasa da, bir sıra siyasi dairələrin bağlı qapılar arxasında ciddi narahatlıqlarına səbəb olmaqdadır. Məlumdur ki, qarşıda dayanan Zəngəzur dəhlizinin gerçəkliyə çevrilməsi planı həm də Turan yolu kimi qiymətləndirilir. Bu gün həmin yola dəhliz də, nəqliyyat-kommunikasiya xətti də digər adlar da demək olar, amma bu yolun reallığa çevrilməsi kökündə Turan yolu ideyasını önə çıxarır. Hansı ki, bu yoldan yalnız Türk dünyasına deyil, dünyaya yeni qapı açılır və bu qapı Azərbaycanın iqtisadi qüdrətinə dəlalət edir. Bu baxımdan, türkdilli ölkələr Azərbaycan üçün iqtisadi baxımdan vacibdirlər və əhəmiyyət kəsb edirlər.

Təbii ki, Azərbaycanın digər beynəlxalq layihələrdə (TAP, TANAP, "Şimal-Cənub") aparıcı mövqeyə sahiblənib və bunun kökündə dayanan əhəmiyyətli məqamlardan biri də budur ki, Bakı yalnız regiondakı mövqeyini deyil, həm də Türk dünyasının mövqeyinin güclənməsində lokomotiv rolunu oynamaqdadır və bu da son deyil...

Məsələyə daha dərin yanaşma edək: bir tərəfdən Türkiyə birmənalı Azərbaycanın dəyişilməz və əbədi ticari, sərmayəçi partnyorlarındandır. Başqa tərəfdən, məhz Mərkəzi Asiyanın türkdilli dövlətləri - Qazaxıstan, Özbəkistan, Qırğızıstan və artıq Türkmənistan potensial iqtisadi sinregiya yaratmaq gücündədirlər ki, onlar öz potensialları ilə TRASEKA (TRACECA) və Çinin "Bir kəmər, bir yol" layihələrinin inkişafına, o cümlədən, Bakının milyardlarla dollarlar yatırdığı infrastruktur obyektlərinə - Ələt azad iqtisadi zonası və limanına, Bakı-Tbilisi-Qars dəmir yoluna qoşula bilərlər!

Bütün bunlar isə Azərbaycandan başlayan, Zəngəzur dəhlizindən qaynaqlanan ümumtürk platformasının və yaxud yeni Türk dünyasının, həmçinin alyansının yaradılması istiqamətində mühüm əhəmiyyət kəsb edir. Belə ki, Mərkəzi Asiya respublikaları ilə iqtisadi əlaqələrin gücləndirilməsi bu layihələrdən gələcək regional əhəmiyyət, dividend baxımından nəhəng perspektivlərə nail olmaq mümkündür. Və əgər bu planların realizəsi sürətlənərsə, Hindistan, Çin kimi münbit və böyük iqtisadi potensiallara malik olan ölkələr də regionun təqdim etdiyi layihələrdən öz töhfələrini ala bilərlər. Belə olan halda Bakının həqiqətən də regional gücdən beynəlxalq gücə çevrilməsi faktoru özünü bir daha təsdiqləyir, eləcə də Türk dünyasının siyasi-iqtisadi mərkəzi amili də bu kontekstdən göstərilə bilər.

***Rövşən RƏSULOV***

# “Rusiya sülhməramlılarının statusu bu günə qədər bəlli deyil”

***"Rusiya sülhməramlılarının hələ də bu günə qədər statusu bəlli deyil. Bilirsiniz ki, Rusiya sülhməramlıları BMT-dan hələ ki, mandat almayıb. Ayrıca rus sülhməramlılarını fəaliyyət sferası da bu günə qədər müəyyən edilməyib. Bu da müəyyən mənada problemlər yaradır". Bu sözləri SİA-ya açıqlamasında politoloq Natiq Miri deyib.***



”İlk növbədə Rusiyanın bu yöndə konkret hədlər, çərçivələr müəyyənləşmədiyi üçün özünün geosiyasi maraqları kontekstində hərəkət edir. Biz bunu Qarabağda müşahidə edirik. Hansı ki, Rusiya sülhməramlılarının birinci vəzifəsi, ilk növbədə edə biləcəkləri atəşkəsi təmin etmək, bu prosesə nəzarət etmək, hər cür hərbi təxribat və terror hadisələrinin qarşısını almaqdan ibarətdir. Ancaq Rusiya sülhməramlıları bu gün atəşkəsi təmin etmək, terrorçuları zərərsizləşdirmək, eyni zamanda erməni silahlı birləşmələrinin Qarabağdan birdəfəlik çıxarmaq əvəzinə, onların fəaliyyət sferasına aid olmayan bütün işlərlə məşuldular. Bilirsiniz ki, bütün humanitar yöndə fəaliyyət göstərirlər ki, bu da Qarabağda yaşayan ermənilərə ev tikməkdən tutmuş, qida yardımına qədər, enerji ilə təchizatından tutmuş müxtəlif davranışlarda humanitar fəaliyyət göstərirlər. Bütün bunlar da əlbəttə, sülhməramlıların fəaliyyət sferasına aid deyil. Ermənistan-Azərbaycan sərhəddində də baş verən toqquşmalar var, doğrudur, bu toqquşmalar Qarabağda fəaliyyət göstərən rus sülhməramlılarının fəaliyyətinə aid edilmir. Çünki, sülhməramlılar Qarabağda atəşkəsi təmin etmək üçündür. Ancaq Ermənistanda da bilirsiniz ki, Rusiya qoşunları var və bu günə qədər Azərbaycan-Ermənistan arasında sərhədlər müəyyənləşmədiyi üçün rus qoşunlarının Azərbaycan-Ermənistan sərhədlərində yerləşməsi mümkün olmur. Çünki, yerləşdiyi təqdirdə hansı ərazilərdə və sərhədlərdə yerləşəcəyi müəyyənləşməyib və rus qoşunları yerləşdiyi təqdirdə bu əlbəttə ki, Azərbaycan dövlətinin narazılığına səbəb ola bilər. Çünki, müəyyənləşməyən sərhəddin başqa bir dövlət tərəfindən qorunması da absurddur. Buna görə də Rusiya, Azərbaycan və Ermənistan sərhəddində baş verən hərbi toqquşmalara müdaxilə edə bilmir. Ancaq bunu Qarabağda demək mümkün deyil. Çünki, 10 noyabr sənədinin altında Rusiya prezidenti və Ermənistan baş nazirinin imzası var və bu imza ilə iki dövlət rəhbəri üzərlərinə konkret olaraq öhdəlik götürüblər. Bu öhdəlikdə bilirsiniz ki, sənədin 4-cü maddəsində birmənalı olaraq bildirilib ki, rus sülhməramlılarının Qarabağa gəlişinə paralel olaraq erməni silahlı birləşmələrini Qarabağdan çıxarmaq öhdəliyini üzərinə götürüblər. Əks təqdirdə Rusiya qoşunlarının Qarabağa gəlməsinə nə kimi ehtiyac var? Yəni bunu Azərbaycan özü də edə bilər. Sadəcə olaraq qonşu olan böyük Rusiyanın müəyyən geosiyasi maraqlarını nəzərə alaraq Rusiya qoşunlarının Qarabağa buraxılmasına rəvac verdi. Bir şərtlər ki, Kəlbəcər, Ağdam və Laçın rayonlarından qoşunlar çıxarılsın, bu ərazilər azad olunsun və erməni silahlı birləşmələri bütövlükdə Qarabağdan çıxarılsın. Bu günə qədər bu proses icra olunmayıb. Bəs nəyə görə? Bu sualın cavabı ondan ibarətdir ki, Rusiya hələ də erməni silahlı birləşmələrinin Qarabağda qalmasında maraqlıdır. Ona görə ki, bu erməni silahlı birləşmələri Qarabağda mövcud olduğu təqdirdə Rusiya daim Qarabağın yarasını çox rahatlıqla istədiyi şəkildə qanada bilir. Yəni Azərbaycanın müstəqil qəbul etdiyi qərarlar fonunda və Rusiyanın maraqlarına uyğun olmadığı təqdirdə bu Qarabağ yarasını erməni silahlı birləşmələri vasitəsi ilə çox rahatlıqla yenidən qanadır. Bu da o deməkdir ki, erməni silahlı birləşmələrinin Qarabağda varlığı zaman-zaman atəşkəsi pozub hərbi təxribatlar törətməsi əslində Rusiyanın Azərbaycana qarşı təzyiq mexanizmi olaraq düşünülüb. Ona görə də zaman-zaman bu cür hərbi təxribatların olması dolayısıyla Rusiyanın uzunmüddətli Qarabağda varlığını təşviq edir”.

***Rüqəyya Orucova***

# DİQQƏT: Gələn il uşaqpulu veriləcək?



***“Gələn il üçün uşaqpulu verilməsi barədə onu deyə bilərəm ki, hazırda dövlət büdcəsində 3 milyard manatlıq bir kəsr nəzərdə tutulur. Büdcənin 26.8 milyard manatlıq gəlir hissəsidir, 29.8 milyard manatıq isə xərc hissəsidir, əlavə olaraq 3 milyard manatlıq isə gəlir hissəsi olaraq nəzərdə tutulub". Bu sözləri SİA-ya açıqlamasında iqtisadçı-ekspert Eldəniz Əmirov deyib.***

”Uşaq pulu məsələsinə gəldikdə isə gəlir hissəsinin bəndlərinə baxdıqda orada gələn il uşaq pulunun veriləcəyinə dair bir gözlənti yoxdur. Buna görə də müəyyən istiqamətlər üzrə müəyyən xərclər ola bilər, ancaq kütləvi olaraq düşünmürəm ki, növbəti ildə bu məsələyə baxılsın. Ümumiyyətlə büdcədə sosialyönümlü təyinatlar üzrə olan xərclərin strukturu 30-40% arasında dəyişir, bu büdcə kifayət qədər sosialyönümlü büdcədir. Bu büdcədən 2 milyard manata yaxın işğaldan azad olunmuş ərazilərimizə vəsait ayrılacaq. Təxminən 1.6-1.9 milyard intervalında pandemiya ilə mübarizə dəstəyi çərçivəsində tədbirlər üçün vəsait nəzərdə tutulur. Bu məsələlərin hamısı büdcədə əlavə xərc bəndləri yaradır. Ona görə də mən şəxsən subyektiv olaraq səsləndirirəm ki, növbəti ilə uşaq pulunun veriləcəyini gözləmirəm”.



# “Laçın yenidən Azərbaycanın ən gözəl bölgələrindən birinə çevriləcək”



***Vətən müharibəsində əldə etdiyimiz qələbə nəticəsində imzalanmış üçtərəfli bəyanata əsasən, dekabrın 1-də Laçın rayonu Azərbaycana təhvil verildi. Noyabrın 9-u artıq Laçın rayonunun Güləbird, Səfiyan və Türklər kəndləri Azərbaycan Silahlı Qüvvələri tərəfindən işğaldan azad edilmişdi”. Bu sözləri SİA-ya açıqlamasında deputat Ceyhun Məmmədov deyib.***

Onun sözlərinə görə, Şuşadan sonra işğala məruz qalan ikinci rayon olan Laçın 18 may 1992-ci ildə işğal edildi: ”Rayonun işğalını reallaşdıran düşmən qüvvələrinin böyük hissəsi Laçın dəhlizi vasitəsilə daxil oldu. Laçın rayonunun işğal altına düşməsi faktiki olaraq Ermənistan ilə Dağlıq Qarabağ arasında coğrafi bağlantı yaratdı. İşğal nəticəsində Laçın rayonunun əhalisi etnik təmizləməyə məruz qaldı, 300-dən artıq hərbi və mülki şəxs həlak oldu və itkin düşdü. Rayonun əhalisi 79.1 min nəfər olmaqla respublikanın 57 şəhər və rayonunda müvəqqəti məskunlaşdı. İşğalı nəticəsində rayonda 217 mədəniyyət, 101 təhsil, 142 səhiyyə müəssisəsi, 462 ticarət, 30 rabitə, 133 idarə və müəssisə, 5 musiqi məktəbi, 1 internat məktəbi, 1 orta texniki peşə məktəbi, 2 avtonəqliyyat və müxtəlif təyinatlı istehsal müəssisələri talan və məhv edildi, 54 dünya, 200-dən çox yerli əhəmiyyətli tarixi abidə vandalizmə məruz qaldı. VI-cı əsrə aid Alban Ağoğlan məbədi, 14-cü əsrə aid Məlik Əjdər türbəsi, Qaraqışlaq kəndində məscid, Zabux kəndində qədim qəbiristanlıq bunların sırasındadır. Laçın Tarix Muzeyi və onun qızıl, gümüş və tunc sikkələrdən ibarət qədim kolleksiyası talan edildi. Qeyd etmək lazımdır ki, Ermənistan Cenevrə Konvensiyaları ilə üzərinə düşən öhdəlikləri kobud şəkildə pozaraq, Laçın rayonunda coğrafi adların dəyişdirilməsi, rayonun təbii resurslarının talan edilməsi və qazanc mənbəyinə çevrilməsi, əsasən, Suriyadan olan erməni əsilli qaçqınlar olmaqla məqsədyönlü məskunlaşma siyasətini apararaq demoqrafik tərkibin dəyişdirilməsi kimi qeyri-qanuni əməllər ilə məşğul olub. Cari ilin 14 fevral və 16 avqust tarixlərində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Laçın rayonunda səfərdə oldu, Güləbird kəndində Azərbaycan bayrağını qaldırdı”.

Deputat fikirlərinə davam edərək həmçinin qedy edib ki, hazırda Laçın istiqamətində dövlət sərhədləri möhkəmləndirilir, Laçın rayonunda fərqli təyinatlı infrastruktur layihələri reallaşdırılır: ”Artıq Laçın rayonunda generasiya gücü 8 meqavat olan Güləbird Su Elektrik Stansiyasını işə salınıb. Bu stansiya təxminən 7000 nəfər əhalinin elektrik enerjisi ilə təminatında mühüm rol oynayacaq. Burada istehsal olunan elektrik enerjisi Qubadlı rayonunun Xanlıq kəndini, Laçın rayonunun cənub hissəsini və ərazidə yerləşən digər infrastruktur layihələrini elektrik enerjisi ilə təmin edəcək. Prezident İlham Əliyevin sərəncamına əsasən tikilən Kəlbəcər-Laçın avtomobil yolunun uzunluğu 72,8 kilometrdir. Birinci və ikinci texniki dərəcəyə uyğun tikiləcək yolun hərəkət hissəsinin eni 9-16 metr olacaq. İki və dörd hərəkət zolaqlı olacaq yol üzərində altkeçidlər və körpü inşa olunacaq. Yol üzərində 3 tunelin tikintisi aparılacaq. Tunellərin ümumi uzunluğu 9450 metr olacaq. Artıq Laçın rayonunda beynəlxalq hava limanının tikintisinə start verilib. Qeyd edək ki, Laçın rayonunun Qorçu kəndinin ərazisində inşa ediləcək hava limanı bir neçə mühüm amili özündə ehtiva edir. İlk növbədə, aeroportun tikilməsi bölgənin sosial-iqtisadi inkişafına təkan verəcək, turizm potensialının artırılmasına səbəb olacaq. Olduqca mühüm strateji əhəmiyyətə malik olan Laçın aeroportu logistik mərkəzlərin yaradılmasına da töhfə verəcək. Laçın hava limanı Azərbaycanın dəniz səviyyəsindən ən hündürdə yerləşən aeroportu olacaq. Uçuş-enmə zolağının uzunluğu 3 kilometr olacaq hava limanında 6 təyyarə dayanacağının inşası nəzərdə tutulur. Bu hava limanı Kəlbəcər rayonu ərazisinə hava nəqliyyatı ilə gediş-gəlişi asanlaşdıracaq. Tezliklə Prezident İlham Əliyevin rəhbərliyi ilə Laçın da yenidən Azərbaycanın ən gözəl bölgələrindən birinə çevriləcək və Laçın əhalisi yenidən o gözəl torpaqlarda yeni həyata başlayacaqlar”.

***Arzu Qurbanzadə***

# Maraqlara deyil, dəyərlərə əsaslanan Türkiyə-Azərbaycan qardaşlıq birliyi!

*Türkiyə ilə Azərbaycan arasında əlaqələrdə atılan hər addım regional əməkdaşlığın inkişafına, təhlükəsizliyin gücləndirilməsinə xidmət edir. Azərbaycan torpaqlarının işğaldan azad edilməsi iki dövlətin əlaqələrinin genişlənməsinə müsbət təsir göstərib. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın son bir ildə Azərbaycana ardıcıl olaraq səfərlər etməsi bunu təsdiqləyir. Əslində, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın səfəri bir neçə baxımdan əhəmiyyətlidir. O, bunun işğaldan azad edilən torpaqlara Azərbaycanın nəzarət etdiyini bütün dünyaya təbliğ edir, bu ərazilərə sərmayə qoyulmasının riskli olmadığını isbatlayır.*

## Türkiyə xalqına, həm də bütün dünyaya bir mesaj: "Biz bir yerdəyik. Bizim birliyimiz sarsılmazdır və əbədidir"



Bu qardaşlıq bölgəyə sülh və sabitlik gətirir

Bu gün Türkiyə və Azərbaycan liderlərinin görüşləri iki dövlətin sarsılmaz birliyinin əyani təzahürüdür. Azərbaycan Prezidenti İlham Əliyev Zəngilanda Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla mətbuata birgə bəyanatla çıxışı zamanı bildirib ki, bu gün regional işlərdə, hətta dünya miqyasında Türkiyə və Azərbaycan birliyi, qardaşlığı önəmli faktora çevrilib: "Bu, əsl qardaşlıq nümunəsidir, əsl dostluq nümunəsidir. Həm Azərbaycan xalqına, həm Türkiyə xalqına, həm də bütün dünyaya bir mesajdır ki, biz bir yerdəyik. Bizim birliyimiz sarsılmazdır və əbədidir".

Türkiyə liderinin səfərləri iki dövlət arasında əməkdaşlığın artıq səmərə verdiyinin göstəricisidir. Prezident İlham Əliyev oktyabrın 26-da Zəngilanda Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla mətbuata birgə bəyanatla çıxış edən zaman deyib: "Sizin səfərinizin çox böyük önəmi var. Siz ikinci dəfədir ki, işğaldan azad edilmiş torpaqlara səfər edirsiniz. Dörd ay bundan əvvəl sizinlə bərabər Şuşa şəhərində olmuşuq. Bu gün isə Füzulidə və Zəngilandayıq. Şuşa şəhərində imzalanan Şuşa Bəyannaməsi tarixi sənəddir. Bu bəyannamə bizim əlaqələrimizi rəsmən müttəfiqlik səviyyəsinə qaldırmışdır. Bu gün Füzuli Beynəlxalq Hava Limanının açılışında birlikdə iştirakımız bir daha bizim birliyimizi göstərir, gücümüzü göstərir. Onu göstərir ki, Türkiyə və Azərbaycan iki qardaş ölkə kimi hər zaman bir-birinin yanındadır".

ŞƏRH

Çünki Azərbaycan və Türkiyə münasibətləri maraqlara deyil, dəyərlərə əsaslanır. Və bu bütün dünya üçün bir nümunədir. Öz maraqları üçün min oyunlar oynayan, hər cür addımlara gedən, mənəviyyatsızlıqları sərhəd tanımayan xarici siyasi dairələr qarşısına Azərbaycan və Türkiyə Prezidentləri bu dəyərlərin gücü ilə çıxırlar. Onlara öz yerlərini göstərirlər. Bu iki liderin uca şəxsiyyətinə, mənliyinə, mənəviyyatına, dəyərlərə bağlılığına yaraşan da elə məhz budur!

Prezident İlham Əliyevin Türkiyənin dövlət başçısı haqqında səsləndirdiyi səmimi sözlər bir liderin digəri haqqında rəyindən də çox, bir insanın öz doğma qardaşının uğurları ilə qürur duyması qədər xoş, sevindirici və fərəhlidir. Bu il oktyabrın 16-da Türkiyənin "A Haber" televiziya kanalına müsahibəsində ölkə rəhbərimiz demişdir: "Rəcəb Tayyib Ərdoğan mənim qardaşımdır. Bizim çox yaxın münasibətimiz var. Həm prezidentlər kimi, həm də iki insan kimi. Ona mənim çox böyük hörmətim var. O, dünya lideridir. O, Türkiyəni böyük zirvələrə qaldırdı. Türkiyəni ucaltdı. Türkiyəni ləyaqətli, qürurlu dövlət kimi bütün dünyaya tanıtdırdı. Ona qarşı çox böyük ədalətsizliklər, haqsızlıqlar edilir, həm bəzi ölkələr tərəfindən, həm də təəssüf ki, Türkiyənin içində də bəzi siyasi qüvvələr tərəfindən... Çünki siyasi mübarizə hər yerdə var. Bir də milli məsələ var. Milli məsələdə hər hansı bir siyasi mübarizə olmamalıdır. Biz təhdid qarşısında birləşməliyik. Bu gün Türkiyəyə də hər tərəfdən hücum edirlər. Ona tab gətirmək, onun qarşısında sipər kimi dayanmaq çox böyük cəsarət tələb edir. Böyük peşəkarlıq, bilik, iradə tələb edir. Mənim qardaşım, bax, belə insandır və mən onu yaxından tanıdığım üçün bunu tam səmimiyyətlə deyə bilərəm".

Bəli, bu gün Azərbaycanla Türkiyə arasında uzun illərin sınağından çıxmış dostluq və qardaşlıq münasibətləri bir daha onu göstərir ki, iki ölkə arasındakı əlaqələr əbədidir və heç bir qüvvə Azərbaycan - Türkiyə dostluğunun, qardaşlığının qarşısını ala bilməz. İki qardaş ölkənin yaxından iştirakı ilə reallaşdırılan qlobal layihələr regionun mənzərəsini dəyişir. Cənubu Qafqazda sülh və təhlükəsizliyin təmin olunması, bu bölgənin yaxın gələcəkdə dünyanın inkişaf mərkəzlərindən birinə çevrilməsi üçün əsaslı zəmin formalaşdırır. Bu prosesə töhfə verən hər kəs bundan yalnız faydalanacaq. Çünki Azərbaycan və Türkiyə bu gün regionda yeni bir reallıq yaradır. Qarabağ savaşı Böyük Qələbəmizlə başa çatandan sonra Cənubi Qafqaz çox ciddi və mühüm bir başlanğıca qədəm qoyur. O başlanğıcın adı Sülhdür! Sabitlik və İnkişafdır!

Bir sözlə, Azərbaycan və Türkiyə qardaşlığı bölgəyə sabitlik gətirməklə yanaşı, bu birlik həm də regional güc kimi mühüm əhəmiyyətə malikdir. Bu gün öz liderlərinin sayəsində hər iki ölkə bütün dünyada böyük uğurlar əldə edən, prinsipial siyasət yürüdən güc kimi tanınırlar. Artıq şübhə yoxdur ki, iki xalq və dövlət arasındakı qardaşlıq daimidir və yaxın vaxtlarda biz hər iki ölkənin növbəti uğurlarına şahidlik edəcəyik.

**RƏFİQƏ KAMALQIZI**

## Baş prokuror: "Bu faciədən siyasi məqsədlər üçün istifadə edilməsi yolverilməzdir"



"Noyabrın 30-da Dövlət Sərhəd Xidmətinin (DSX) Mİ-17 tipli helikopterinin təlim uçuşu yerinə yetirərkən qəzaya uğraması nəticəsində həlak olan hərbçilərimizin ailələrinə, yaxınlarına öz adımdan və Baş Prokurorluğun kollektivi adından başsağlığı verirəm, xəsarət alanlara şəfa diləyirəm". Bu fikri Kiyevdə səfərdə olan Azərbaycan Respublikasının Baş prokuroru, I dərəcəli dövlət ədliyyə müşaviri Kamran Əliyev jurnalistlərə açıqlamasında deyib.

Kamran Əliyev bildirib ki, bu faktla bağlı artıq cinayət işi başlanıb: "Dövlət başçısı İlham Əliyevin tapşırığı əsasında cinayət işi tam və hərtərəfli araşdırılacaq, bu hadisənin bütün səbəb və şəraiti istintaq zamanı öyrəniləcək. İstintaqın gedişi barədə Azərbaycan ictimaiyyəti ətraflı və mütəmadi məlumatlandırılacaq".

Baş prokuror təəssüf hissi ilə qeyd edib ki, bəzi şəxslər tərəfindən bu hadisədən siyasi məqsədləri üçün sui-istifadə hallarına cəhdlər göstərilir, heç bir fakta söykənməyən əsassız şayiələr yayılır: "Bununla bağlı bildirirəm ki, bu kimi şəxslər barədə Azərbaycan Respublikasının qanunlarında nəzərdə tutulan ən sərt tədbirlərin görülməsi təmin ediləcək. Bu faciədən siyasi məqsədlər üçün istifadə edilməsi yolverilməzdir".

## Qırğız politoloq: "Hamı çox gözəl bilir ki, Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir"

*Qırğız politoloqu Mars Sarıyev İqtisadi Əməkdaşlıq Təşkilatının (İƏT) noyabrın sonunda Türkmənistanın paytaxtı Aşqabadda keçirilən 15-ci Sammitinin yekunları üzrə qəbul edilmiş "Aşqabad Fəaliyyət Konsensusu" adlı yekun bəyannaməni "Caliber"ə şərh edib. Politoloqun şərhini oxucularımıza təqdim edirik.*



RƏY

- Bəyannamədə xüsusilə İƏT-ə üzv ölkələrin dövlət və hökumət başçıları işğal olunmuş ərazilərin azad edilməsi və ölkənin ərazi bütövlüyünün bərpası münasibətilə Azərbaycan hökumətini və xalqını təbrik ediblər. İmzalayanlar arasında KTMT-nin 3 üzvü (Qazaxıstan, Qırğızıstan, Tacikistan) var.

KTMT-yə üzv dövlətlərin, xüsusilə Qırğızıstan və Qazaxıstanın mövqeyi düzgündür. Mən KTMT üzvlərinin işğal olunmuş torpaqların azad edilməsi münasibətilə Azərbaycanı təbrik etməsinə təəccüblənmirəm. O ki qaldı Ermənistan tərəfinin uydurduğu, guya Azərbaycanın Ermənistan ərazisini işğal etməsi ilə bağlı mövqeyə, mən hesab edirəm ki, Bakıdakı rəhbərliyin bunu etməmək üçün müdrikliyi var. KTMT nizamnaməsinə görə, bu baş verərsə, o zaman bloka üzv olan dövlətlər Ermənistana kömək etməlidir. Lakin bunun baş verəcəyini güman etsək də, mən hesab etmirəm ki, Qırğızıstan və Qazaxıstan KTMT üzvü kimi blokun nizamnaməsini pozaraq belə bu işdə iştirak etsinlər. Üstəlik, Türk Dövlətləri Təşkilatı yaradılıb və bu təşkilat həm də Qafqazda və Orta Asiyada vəziyyətin sabitləşməsində mühüm rol oynayır.

**Tərcümə - Elçin Bayramlı**

Təhlil

***Artıq 44 günlük müharibədən 1 ildən də çox vaxt keçməsinə baxmayaraq, Ermənistanla nə delimitasiya və demarkasiya məsələləri həll olunmayıb, nə Zəngəzur dəhlizi açılmayıb, nə də ən əsası, sülh müqaviləsi imzalanmayıb. Təbii ki, bunun hər şeydən öncə acısını çəkən, zərərini görən Ermənistandır. Nəzərə alsaq ki, "Dəmir yumruq" yerindədir və ortada bir il öncə imzalanan Bəyanat, erməni baş nazirinin Kapitulyasiyaya imza atması faktı var, deməli, təxribatçı ermənilər üçün tələblərdən nə qaçış yeri var, nə də məsələləri Ermənistan tərəfinin bu şəkildə uzatmasının zərərdən başqa onlar üçün heç bir nəticəsi gözlənilmir.***

# Sülh müqaviləsini gecikdirmək Ermənistanı çökdürür



Hazırda Ermənistan cəmiyyətində müşahidə olunan xaos, narazılıqlar, fikir ayrılıqları, bəzi təxribatçı qrupların revanşist fikirləri ilk növbədə məhz bu cəmiyyətin özü üçün yaxşı heç nə vəd etmir. Müxalifətçi ermənilər işğalçı ölkənin mövcud hakimiyyətini sıxışdırmaqda davam edir və Paşinyan hakimiyyəti də bu təzyiqlərin fonunda daxili auditoriyaya hesablanan fikirlər, sərsəm bəyanatlar səsləndirir ki, nəticə etibarı ilə bundan erməni xalqı əziyyət çəkir. İndi erməni cəmiyyətinin qorxu hissini, ələlxüsus müharibə qorxusunu da istisna etmək olmaz və məhz 44 günlük müharibədən sonra bu cəmiyyət yaradılan miflərin puç olduğunu, xülyalarının mənasız olduğunu artıq dərk edib deyə, bundan sonra yalançı vədlərə də inanan deyil. Əksinə, bəzi qüvvələrin oyuncağına çevrildiklərinin fərqində olanlar həyacan altında yaşayır və bu da anlaşılandır. Anlaşılan odur ki, ermənilər indi yaxşı başa düşürlər ki, bəzi qüvvələrin siyasi maraqlarının, ambisiyalarının bu vaxta qədər qurbanına çevrilmələri bir daha təkrar oluna bilər və yenə də erməni xalqı bunun altını çəkəcəyindən ehtiyat edir. Məhz ermənilərin artıq Ermənistanı sürətlə tərk etməsi də bu mənada başadüşüləndir və bu artıq həmin ölkədə ciddi problemə çevrilib. Ermənistana məxsus mətbuat səhifələrinin yazdığına və rəsmi dövlət qurumlarının etirafına görə, təkcə bu ilin 9 ayı ərzində bu ölkəni 103 min erməni tərk edib və geri qayıtmayıb. Ermənistan vətəndaşlarının ölkəni tərk etmələri barədə statistik göstəricilər də müəyyən məqamlara aydınlıq gətirir. Beləki, 2017-ci ilin 9 ayı ərzində 75 min, 2018-ci ildə 42 min, 2019-cu ildə 36 min erməni vətəndaş ölkəni tərk etdiyi halda cari ildə bu göstəricinin 103 min olması ondan xəbər verir ki, Ermənistandakı inqilab dedikləri dövlət çevrilişindən sonra mühacirət azaldığı halda, müharibədən sonra bu rəqəm olduqca artıb. Amma onu da diqqətə çatdırmaq yerinə düşərdi ki, mühacirətlə bağlı bu göstəricinin artması erməni xalqının inqilabdan gözləntilərinin puça çıxması, müharibədən sonrakı xaos, yenə də müharibə qorxusu, sosial problemlər, heç bir müsbət gözlənti olmaması, bir sözlə ölkələri ilə, yaşam tərzləri ilə bağlı ümidlərinin puça çıxmasıdır.



Ermənistandan ermənilər iş axtarmaq və sonra da geri dönmək üçün getmirlər, əksinə, daha çox gələcəyə heç bir inamın qalmaması, özündən əvvəlkilər kimi Paşinyanın da cənnət barədə nağılların puç olması və müharibə riskinin qalması səbəbi ilə tərk edirlər. Onlar belə bir qənaətdədirlər ki, sabaha, gələcəyə ümid yoxdur, müharibə riski hələ də qalır. Axı niyə ermənilər belə bir qənaətdədirlər? Bunun səbəbini elə özlərində axtarsalar daha doğru olar. ”Qarabağ Ermənistandır və nöqtə” deməyin acısını yaşayan Paşinyandan bu toplum dərs almadı ki, indi də ”revanş” sözü dövriyyəyə buraxılıb? Məgər bu toplum xəstə təxəyyüldən, xülyalardan əl çəkə bilir ki, günahı da kimdə isə axtarsın? Həm də gunah keçisi kimi ortalığa atılan beli çantalı ”küçə inqlabçısını” özləri seçməmişdilərmi? Yaxud, indi Paşinyanı günahkar hesab edənlər guya onun yerində olsaydılar nə edə bilərdilər? Əgər Ermənistan adında dövlət mövcudluğu dövründə işğalçılıqdan başqa bir işlə məşğul olmayıbsa, yalanlarla, boş vədlərlə xalqı aldadıbsa, nəticədə də ortada heç nə yoxdursa, dövlət səfalət içindədirsə, iqtisadiyyat, dövlət büdcəsi, hərbi imkanlar yox dərəcəsindədirsə, Azərbaycan kimi qüdrətli bir dövlət qarşısında necə rüsvayçı məğlubiyyətlə qarşılaşmaya bilərdilər? Nikol da sadəcə olaraq özündən əvvəlkilərin ənənəsinə sadiqlik nümayiş etdirib, boş vədlər verməkdə davam edib, pafoslu çıxışlar edib, yalançı mifləri bir az da şişirdib və bir az da ölkə uçuruma yuvarlanıb. Bir də axı Paşinyandan müharibə tələb edənlər özləri erməni xalqının müharibə qorxusunu niyə nəzərə almırlar? Niyə nəzərə almıqlar ki, bir də döyüşə qatılmağa demək olar hərbçiləri, hərbi texnikaları, gücləri, taqətləri belə qalmayıb? Bu səfil durumda yenə də sülh deyil, qisas, müharibə çağırışı Ermənistan üçün nə deməkdir anlamırlarmı? Görünür elə anlayanlardır xaos içərisində olan bu işğalçı ölkəni tərk edənlər.

Qarabağ məsələsi, daha dəqiq desək, qonşularla suverenlik və ərazi bütövlüyünün qarşılıqlı tanınması məsələsi yoluna qoyulmadan, sülh sazişi bağlanılmadan, normal əlaqələr qurulmadan ermənilər nicat tapa, Ermənistan böhran bataqlığından çıxa bilməz və bunu hər bir erməni belə bilməlidir, nəinki baş nazir Paşinyan. Lakin, maraqlıdır ki, bu reallığı erməni cəmiyyəti dərk edə bilirmi? Yəqin ki, elə dərk edənlərdir Ermənistanı tərk edənlər. Yəni, sülh sazişinin bağlanması uzandıqca, daha doğrusu, Ermənistan tərəfi bunu uzatmaqda maraqlı olduqca kütləvi köçün qarşısını ala bilməyəcəklər. Ən azından dərk etmək lazımdır ki, kapitulyasiyaya imza atmaq məcburiyyətində qalan bir ölkədə revanş səsləndirilməsi bu ölkənin məhv olma yolu deməkdir və ən azından dəmir yumruğu bu dəfə başları üzərində görəcəkləri zaman buna tam əmin olacaqlar, amma çox gec olacaq. Bəlkə də bundan sonra heç Ermənistan olmayacaq və məhz bu qorxudur elə erməniləri köç etdirən. Tam aydın şəkildə görünür ki, revanşistlərin, avantüristlərin meydan sulaması gələcək üçün bədbin proqnozlar verməyə əsas yaradır və belə bir mühit də öz növbəsində müharibə xofu yaratmaya, günügündən bu müharibə xofunu şiddətləndirməyə bilməz. Yəni, Ermənistan hakimiyyəti, eləcə də cəmiyyəti anlamalıdır ki, ümidləri puç olanlar, yaxud müharibə olma ehtimalından qorxuya düşənlər Ermənistandan qaçır, kütləvi köç isə nəinki ildən-ilə, hətta aydan-aya daha böyük miqyasda müşahidə olunur.

Əslində, İrəvan sülh müqaviləsinin imzalanmasını nə qədər uzadarsa, bu müqaviləni daha ağır şərtlərlə imzalayacağını bilməlidir. Bilməlidir ki, eyni ilə 44 günlük müharibədən öncə qeyd olunan şərtlərdən fərqli olaraq Paşinyan daha böyük məğlubiyyətə imza atdığı kimi, bu dəfə də sülh müqaviləsini daha ağır şərtlərlə imzalamalı olacaq. Onsuz da Azərbaycanın ərazi bütövlüyünü təsbit edib möhkəmləndirməsi üçün rəsmi Bakı Ermənistanı sülh müqaviləsi imzalamağa məcbur eləməkdədir və hadisələr də bunu təsdiq edir. Təbii ki, Ermənistanda hakimiyyət də, müxalifət də iki ölkə arasında sülh müqaviləsinin imzalanmasına əngəl törətmək istəyir. Onlar yaxşı bilirlər ki, müqavilə imzalandıqdan sonra nə populizmi davam etdirmək, nə xəstə təxəyyüllə manipulyasiya etmək, nə də xalqı boş vədlərlə doydurmaq mümkün olmayacaq. Elə buna görə də hələlik cabalayırlar, amma anlasalar ki, gec-tez imzalanma baş verməlidir və bu baş verəcək, özlərini belə yormaq yadlarına da düşməz.

Qonşuları ilə münasibətlərdə ermənilər özlərini qəti şəkildə günahkar görmək niyyətində deyillər. Əksinə, Ermənistan tərəfi qonşu dövlətlərlə konfliktləri daha da qızışdırır, ölkə daxilində olan mövcud problemləri də qonşuları ilə münasibətlərin pis olması ilə əlaqələndirirlər. Bir növ, daxildə olan problemlərinin səbəbini qonularının pis olması kimi faktordan asılı kimi qələmə verirlər və özlərinin belə səfalət içərisində olmalarına səbəb kimi qonşularının pis olmasını göstərirlər. Bunu təkcə ətrafdakılara deyil, hətta özlərinə belə sübut etməyə çalışırlar və əksər hallarda belə bir addım daxili auditoriyaya hesablanır. Amma bu heç də vəziyyətdən çıxış yolu deyil və sülh müqaviləsindən qaçmaq üçün şans sayıla bilməz.

İndi erməni baş naziri hər şeydə, məğlubiyyətdə, səfalətdə və bütün məsələlərdə günahlandıranlar bilməlidirlər ki, ermənilər öz dövlət başçılarını deyil, təfəkkürlərini, düşüncə tərzlərini dəyişməlidirlər. Hər bəlalarında özlərini deyil başqalarını günahkar görmək kimi bir ənənədən əl çəkmədikcə işğalçı ölkə uçuruma yuvarlanmaqda davam edəcək. Bir sözlə, günahkar olduqları ilə, mövcud vəziyyətlə, Azərbaycanın bölgədə yaratdığı reallıqlarla barışmadıqca, sülh müqaviləsini imzalamadıqca bu ölkə daha ağır bəlalara düçar olacağına hazır olmalıdır. Ermənilər bilməlidirlər ki, sülh müqaviləsini gecikdirmək heç də onların xeyrinə deyil, əksinə daha böyük bəlalar vəd edir və Ermənistanı çökdürür.



***İnam Hacıyev***

***Son günlər baş verən siyasi proseslər bir-birini tez-tez əvəzləməkdədir və onların əsas çoxluğunun Cənubi Qafqaz regionunda cəmləşməsi də sirr deyil. Xüsusilə, Azərbaycan Prezidenti İlham Əliyevin Rusiyanın dövlət başçısı Vladimir Putinlə və Ermənistanın baş naziri Nikol Paşinyanla keçirdiyi Soçi görüşü regional siyasətə yeni dinamika verdi. Ola bilsin ki, bu görüş regionla maraqlanan ictimai rəyə kifayət qədər balanslı və ümumi xarakter təsəvvürünü yaradır, amma bağlı qapılar arxasında tərəqqinin əldə edilməməsinə kimsə zəmanət verə bilməz. Tərəflərin mətbuat üçün verdikləri bəyanatları isə mühüm razılaşmaların əldə olunmasına şahidlik edir, xüsusilə, Zəngəzur dəhlizi və sərhədlərin delimitasiyası və demarkasiyası ilə bağlı...***

# Soçidən Aşqabada - Brüsselə ehtiyac varmı?



### İlham Əliyev Nikol Paşinyanın "şirəsini" məhz Soçidə sıxacaqdı, özü də Vladimir Putinin gözü qarşısında!

Nikol Paşinyanın israrlı müqavimətlərinə baxmayaraq onun razılaşmaqdan başqa çarəsi də qalmamışdı və əvvəl-axır Bakı ilə Moskvanın qarşısında boyun əyməliydi. Məhz bu mənada Soçi gö-



rüşünə qədər baş verən prosesləri bir daha xatırlamaq olar: Əvvəlcə Paşinyan Putinlə və Əliyevlə noyabrın 9-da keçirilməsi dəqiqləşdirilmiş görüşü pozmağa nail oldu və bunu "ağır assosiasiyaları" bəhanəsi ilə əlaqələndirdi. Paşinyanın noyabrın 23-də, Ermənistanda sosial şəbəkə vasitəsi ilə keçirdiyi onlayn mətbuat konfransında dediyi kimi, o, Rusiyaya və Azərbaycana görüşü 16 noyabrda keçirməyi təklif edib, lakin bu tarixdən sonra da bir sıra zəncirvari olaylar yaşandı ki, həmin görüşün keçirilməsi mümkünsüz göründü.

Noyabrın 13-də erməni terrorçusu Norayr Mirzoyanın Şuşada hərbi xidmət aparan Azərbaycan əsgərlərinin postlarına qumbaralı hücumu baş verdi.

Noyabrın 14-də isə artıq Ermənistanın sabiq müdafiə naziri Arşak Karapetyanın Rusiya sülhməramlılarının nəzarətləri altındakı Qarabağ bölgəsinə qanunsuz səfəri baş tutdu ki, orada separatçı-quldur rejimin rəhbərləri ilə görüşlər keçirdi. Elə həmin gün sərhədin Laçın istiqamətində, Qaragöl tərəfdə mövqelənən azərbaycanlı postları üçün təminat yolu hesab edilən ərazinin bağlanılmasına cəhd göstərildi. Ancaq erməni tərəfinin səriştəsizliyi və səbatsızlığı bu dəfə də özünü çox gözlətmədi. Törətdikləri təxribat nəticəsində elə 60 nəfərə qədər erməni hərbçilərinin özləri mühasirəyə düşdülər. Onları əsir düşmək, yaxud məhv edilmək aqibətindən isə yalnız rus diplomatlarının işə qarışmaları xilas etdi.

Daha sonra -16 noyabr tarixində Ermənistanla Azərbaycan arasında yenə də erməni tərəfinin aşkar təxribatı nəticəsində silahlı qarşıdurma yaşandı və hər iki tərəf itkilər verdi, xüsusilə, düşmən tərəfinin itkiləri kifayət qədər oldu, üstəlik, təxribatçıların bir qismi də Azərbaycan hərbçiləri tərəfindən saxlanıldılar.

Bunun ardınca müəyyən mövqe dəyişiklikləri də baş verdi və həmin dəyişikliklər ermənilərin sərhədyanı vəziyyətləri ağırlaşdırdı.

Belə bir fonda Nikol Paşinyanın siyasi komandası vəziyyətdən çıxmaq üçün diplomatik cəhdlər göstərmələri yerinə Rusiyaya və KTMT-yə qarşı ittihamlar yağdırmağa başladılar. Üstəlik, Rusiyanən dövlət başçısına verdiyi vədini tutmaması və görüşlərdən qaçması azmış kimi, Paşinyan Avropa İttifaqının rəhbəri Şarl Mişellə əslində separat xarakterli danışıqlara getdi, bu vasitə ilə Azərbaycanı danışıqlar prosesinə Qərb meydançasına tərəf cəlb etməyə çalışdı. Məhz Mişel üzərindən Paşinyan İlham Əliyevlə dekabrın 15-də Brüssel görüşünün keçirilməsini razılaşdırdı. Təbii ki, Kreml ona qarşı oynanılan sabotajlı oyunu kənardan izləyə bilməzdi və Moskva çox gözlətmədi də. Vladimir Putinin Nikol Paşinyanla qısa, lakin təkidli telefon rabitəsindən sonra Soçidə görüşün keçirilməsi barədə qərar qəbul edilir. Ancaq bu dəfə 23 noyabrda Paşinyanın yuxarıda qeyd olunmuş onlayn mətbuat konfransını keçirir, üstəlik qarşıdan gələn Soçi görüşünü pozmağa çalışır. O, bir sıra destruktiv tezislər səsləndirir ki, burada əsas məqsədi kimi Soçi görüşünün keçirilməsinə əngəllərin yaradılmasına cəhdlər göstərir. Ancaq hər şeyə rəğmən, Bakı öz soyuqqanlığını saxlayır, Paşinyanın danışıqlar prosesini pozmağa yönəlmiş bəyanatlarını inkar edir. Təbii ki, Bakının apardığı siyasətinin də öz məqsədləri var idi - İrəvanı küncə sıxışdıraraq tələb edilən şərtlərə əməl etdirmək. Daha dəqiq desək, İlham Əliyev Nikol Paşinyanın "şirəsini" məhz Soçidə sıxacaqıydı, özü də Vladimir Putinin gözü qarşısında. Və...

Və belə də oldu. Soçidəki üçtərəfli bəyanatda nə "Qarabağın statusu" haqqında danışıldı, nə ATƏT-in Minsk qrupu xatırlandı, nə də "Ermənisatanın ərazi bütövlüyünə müdaxilənin edilməsi" barədə bir kəlmə də olsun bəhs olunmadı. Paşinyanın inadla dedikləri fikirlərinin, səsləndirdiyi ittihamlarının hər birinin üzərindən çalın-çarpaz xətlər çəkildi. Amma bütün bunların yerinə sənəddə konkret layihələrin qısa zamanda reallaşdırılması, həyata keçirilməsi məsələləri barədə danışılır, habelə sərhədlərin delimitasiyası və demarkasiyası tələbləri. Bunu isə Bakı ilə Moskva tələb edirdi.

### KTMT bir, Tehran və Aşqabad isə digər tərəflərdən Ermənistana ağır zərbələr endirdi

Erməni tərəfi üçün xoş olmayan xəbərlər bununla da baş çatmadı. Türkmənistanın paytaxtı Aşqabadda - İqtisadi Əlaqələr Təşkilatının (İƏT-in) 28 noyabrda keçirilən XV Zirvə Toplantısında bu qurumda təmsil olunmayan Ermənistanı yeni sürprizlər gözləyirdi. İƏT-in yekun bəyannaməsində təşkilata üzv ölkələr Azərbaycanı torpaqlarını erməni işğalından azad etməsinə, ərazi bütövlüyünü bərpa etməsinə və Qarabağ müharibəsindəki zəfərinə görə təbrik etdilər. İrəvan üçün ən acınacaqlısı bu oldu ki, bəyannaməni imzalayan ölkələrin içində Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının (KTMT) təmsilçiləri də yer aldı. Qazaxıstan, Qırğızıstan, Tacikistan, habelə orada təmsil olunmayan İran prezidentləri bəyannaməyə tarixi imzalarını atdılar.

İrəvan üçün "Bakı-Ankaraya qarşı mübarizə" məsələsində ən xoşagəlməyən fakt isə son anlara qədər "stavka" etdiyi Tehranın verdiyi qərarları oldu. Noyabrın 28-də İlham Əliyevin iranlı həmkarı İbrahim Rəisi ilə görüşündə ildə 2 milyard kubometr türkmən qazının İran üzərindən Azərbaycana nəql olunması barədə razılığa gəlmələri rəsmi İrəvanın sözün əsl mənasında "cızdağını" çıxardı. Söz yox ki, bu qərar Ermənistanın diplomatik mövqelərinə vurulan ən ağır zərbələrdən biri oldu. Bakı və Tehran faktiki olaraq bir-birlərinin arasındakı elə də sadə olmayan, hətta bəzi hallarda həll edilməsi mümkünsüz görünən yükü kənara atmağı bacardılar, münasibətlər kontekstində yeni səhifə açdılar. Belə ki, İran üzərindən türkmən qazının nəqli Bakının potensial rolunu artırır və o, Tehranla birlikdə Avropanın enerji təhlükəsizliyini təmin edir - Avropa Azərbaycanla və İranla bir sıra siyasi məsələlərdə hesablaşmalı olacağını artıq dərk edir. Xüsusilə, Brüsseldə keçiriləcək görüşdə Ermənistanın şikayətlərinin nə dərəcədə eşidiləcəyi artıq sual altında qalmış olur.

Rusiya-erməni universitetinin professoru Vaqe Davtdyan: "Bizim gözlərimiz qarşısında Xəzər-Qafqaz regionunun dərin transformasiyası prosesi baş verir ki, Ermənistan yenidən xıdralanmış pul kimi istifadə olunur"

Yeri gəlmişkən, Rusiya-erməni universitetinin professoru Vaqe Davtdyan cərəyan edən hadisələri belə şərh edir: "Tehran və Bakı illik 2 milyard kubometr həcmində Türkmənistan qazının İran üzərindən Azərbaycana nəqli barədə sənədə imza atıblar. Bizim gözlərimiz qarşısında Xəzər-Qafqaz regionunun dərin transformasiyası prosesi baş verir ki, Ermənistan yenidən xıdralanmış pul kimi istifadə olunur. İran-Azərbaycan arasında belə bir sənədin imzalanması kiçik məsələ, ya da texniki diversifikasiya deyil. Bu, tərəflər arasında qurulan strateji siyasətin nəticələridir ki, həm də qarşılıqlı dayanışma vasitəsi kimi də istifadə olunacaq. Və əgər nəyin baş verdiyini aydınlaşdırsaq görünən budur ki, regional oyunçular "Şimal-Cənub" (hansı ki, mən bu barədə minimum 2017-ci ildən yazıram - V.D) nəqliyyat-energetika logistikası ilə bağlı razılığa gəliblər".

Erməni professorunun qiymətləndirməsinə görə, bu olay Ermənistanın regiondakı mövqelərinə neqativ effektlər verəcək. Həqiqətən də bu gün Ermənistan özü-özünü çox təhlükəli vəziyyətə tərəf qovub. Klassik müttəfiqləri (Rusiya və KTMT) ilə münasibətləri qeyri-uzaqgörənlik səbəbindən dağılıb, erməni xarici siyasəti uğursuzluğa düçar olub.

### Ermənistanın "3+3" platformasına qatılmasından başqa çarəsi də qalmır

Azərbaycan-İran münasibətlərində gərginliyin yaranmasından istifadə etmək cəhdləri də uğursuz oldu. Və Bakı ilə Tehranın mühüm siyasi-iqtisadi razılıqlara gəlmələri buna sübutdur. Bircə ümid qalır Qərbə, amma orada da hər şey eyni müstəvidə və birmənalı deyil: Avropa İttifaqı və ABŞ uzaqdadırlar və onlar bizim regionda nəyi isə həll etmək marağında da deyillər, onların maraqları bir çox hallarda energetika və nəqliyyat komponentləri ilə əlaqəlidir və bu məsələdə də bütün kozırlar məhz və məhz Bakıdadır!

Belə görünür ki, Ermənistanın yalnız regional oyunçuların iştirakı ilə mühüm regional məsələləri həll etmək iqtidarında ola biləcək "3+3" platformasına qatılmasından başqa çarəsi də qalmır. Belə şəraitdə ATƏT-in Minsk qrupunun, "Şərq tərəfdaşlığı"nın və s. başqa qərb mexanizmlərinin Cənubi Qafqaza təsir mexanizmləri aktuallığa çevrilir. Bu zaman Ermənistanın son seçim etmək vaxtıdır və İrəvan regional kooperasiyanın xeyrinə, eləcə də qonşularına qarşı ərazi iddialarına son qoymalıdır və hələ ki, buna vaxtı var.

**Rövşən RƏSULOV**

ARAŞDIRMA

# Tənbəllik, yoxsa xroniki xəstəlik?

***Saatlarla dincəlmək, heç bir şey etmədikdə belə aylarca eyni hissləri yaşamaq insanlarda sıx görülən hallardır. Bəzilərinə çox tanış olan bu vəziyyət bəziləri üçün tənbəllik kimi şərh edilsə də, bu mənzərə xroniki yorğunluq sindromundan başqa bir şey deyil. Avrasiya xəstəxanası daxili xəstəliklər mütəxəssisi müasir dövrün yeni xəstəliyi olan xroniki yorğunluq sindromundan danışıb. Əsas yorğunluğun səbəbləri aydındır. Çox yayılmış bir şikayət olan yorğunluq, ümumiyyətlə həddindən artıq məşq, qida çatışmazlığı, anemiya, yuxarı tənəffüs yollarının xəstəlikləri, tiroid xəstəlikləri və virus infeksiyası səbəbindən inkişaf edir. İstifadə edilən bəzi dərmanlar yorğunluğa səbəb ola bilər.***





### 6 aydır getməyən yorğunluğunuz üçün bir səbəb var

Xroniki yorğunluq sindromu müasir dövrün ən geniş yayılmış problemlərindən biri hesab olunur. İnsanları fiziki, zehni və mənəvi cəhətdən təsir edən xroniki yorğunluq sindromu altı aydan çox davam edən əzələ, oynaq, boğaz ağrısı, ürəkbulanma və konsentrasiyanın olmaması kimi özünü göstərir. Xroniki yorğunluq sindromunun ən diqqət çəkən xüsusiyyəti yorğunluğun istirahətlə daha da pisləşməsidir. Çünki zehni məşğuliyyətlər yorğunluğu daha da artırır. Buna görə də xroniki yorğunluqdan çox fərqli bir nöqtədədir. Xroniki yorğunluq sindromunda yorğunluğun əsas səbəbi fiziki fəaliyyət nəticəsində inkişaf etməməsidir. Digər fərqlər 6 aydır davam etməsi və yataq istirahəti ilə getməməsidir. Daha çox qadınlarda görülən xroniki yorğunluq sindromu ümumiyyətlə 30-50 yaş qrupunda müşahidə edilir.

### Xroniki yorğunluq sindromu niyə yaranır?

Dəqiq səbəbi bilinməsə də, xroniki yorğunluq sindromunun ortaya çıxmasında təsirli olan bəzi amillər var. Bunlar zəif immunitet sistemi, bəzi viruslar, qidalanma, həddindən artıq stress altında görülən iş, zülmdür.

### Xroniki yorğunluq sindromunun əlamətləri hansılardır?

Ən tipik simptom keçməyən yorğunluqdur. Əlavə olaraq unutqanlıq, diqqət dağınıqlığı, oynaq və əzələ ağrısı, limfa düyünlərinin şişməsi, dəridə qızartı və şişkinlik, yemək pozğunluqları, boğaz ağrısı, yuxu pozğunluqları, narahatlıq, istəksizlik, həssaslıq da olur.

### Xroniki yorğunluq sindromunun diaqnozu necə qoyulur?

Xroniki yorğunluq sindromunun diaqnozunda istifadə olunan 2 mühüm sual var. Birincisi hər hansı fiziki fəaliyyət nəticəsində baş verib-verməməsi, ikincisi isə 6 aydır davam etməsidir.

### Bu yorğunluqdan xilas olmaq mümkündürmü?

Yorğunluğun arxasında duran səbəblər müalicənin insana uyğunlaşdırılması zəruri edir. Bu nöqtədə problem fizikidirsə, yaxşı bir yuxu çox vacibdir. Əgər problem anemiya, qalxanabənzər vəzi və ya virus infeksiyalarından qaynaqlanırsa, bu xəstəliklər üçün bir yol izlənir. Ancaq problem xroniki xarakter daşıyırsa, psixoloji səbəblər araşdırılmalıdır.

Tənbəllik və hərəkətsizlik bir şey istehsal etmək üçün motivasiyanın olmamasıdır. İnsanda işini təxirə salmağa, işə gec getməyə, icazəsiz və ya narahatçılıqdan işə getməməyə, işini tərk etməyə, münasibətlərində problemlər yarada, insanlarla qaynayıb-qarışmağı dayandıra bilər.

Tənbəl insan evini, otağını yığışdırmaqda çətinlik çəkir, kitab oxumağa və idmana başlaya bilmir. Bitməyən işlər insanın beynini məşğul edir və stress yaradaraq depressiyaya səbəb olur.

Tənbəl insanlar hər şeydən qaçmaq istəyirlər. Həmişə öz rahatlıqlarını düşünürlər. Ayrılıq kimi emosional dəyişikliklər insanın motivasiyasını azalda və tənbəlliyə səbəb ola bilər.

Uşaqlıqda məsuliyyət verilməyən insanlar yetkinliklərində məsuliyyəti öz üzərlərinə götürmək istəməyə bilərlər. Çətinliklərin öhdəsindən gələ bilməyəcəyini düşünən insan həmişə asanı seçir. Əgər ətrafındakı insanlar da hərəkətsizdirsə, o, onlardan təsirlənə bilər. Əgər insan özünü motivasiya edə bilmirsə, hərəkətə keçə bilməz.

Motivasiyanı artırmağa çalışmaq lazımdır. Əgər insan nəyisə etməyə həvəslidirsə, hərəkətə keçə bilər. Atılan hər bir addım, hətta bir neçə addım da haradansa başlamaqdır və insanın motivasiyasını artırır, enerjili hiss etdirir. Əgər şəxs hərəkətə keçə bilmirsə, o, dəstək almalıdır. Hipnoterapiya-psixoterapiya ilə fərdin tənbəlliyinə səbəb olan hadisələr şüuraltı səviyyədə üzə çıxarılır, şərh və həll edilir. SİA məsələ ilə bağlı araşdırma apararaq psixoloq, həkim və ekspertlərin fikirlərini öyrənib.

"Ailə Dünyası" Ailələrə Hüquqi Yardım İctimai Birliyinin sədri Gülay Səfərova: "Bu gün hər birimizin həyatında müstəsna rol oynayan texnologiya həyatımızın ayrılmaz bir parçasına çevrilib. Texnologiyadan istifadə işlərimizi asanlaşdırsa da, sürətləndirsə də amma bundan asılılıq da yaradır, bir az bizi tənbəlləşdirir də. Demək olar ki, həyatımızı ağıllı, proqramlı əşyalara həvalə etmişik.

İnsanların texnologiyaya asılılığı onların sağlamlığına da mənfi təsir edir. Belə ki, saatlarla internetdən istifadə edən insanlarda diqqət pozğunluğu yaradır, informativ stresləri artırır, davranış pozğunluqlarının yaranmasına gətirib çıxarır.

Bədən quruluşunuzu qorumaq üçün idman edin. Doğrudan da əvvəllər elə mən özüm də idmana gedirdim. İndi isə sözün açığı vaxt yoxdur idman etməyə. Həm də insanlar çox tənbəlləşib. Axşamlar biraz yürüyüşə çıxıram ki, heç olmasa bir saat belə yürüşə vaxt sərf edim. O da oturaq iş olur, tədbirlər çox olur.

İkincisi pandemiya dövründə bu məsələlər doğrudan da unudulub. Həm idman zallarının bağlanması, eyni zamanda oturaq iş, onlayn tədbirlər və s. insanı tənbəl edir".

Həkim-infeksionist Xatirə Əliyeva: "Bildiyimiz kimi, XXI əsr texnologiya əsridir. Texnologiya insan tərəfindən məlumat və xidmətlərin yaradılması prosesidir. Lakin texnologiyanın inkişaf etməsinin müsbət tərəfləri ilə yanaşı mənfi tərəfləri də var.

Nəqliyyat vasitələri, kommunikasiyalar, müxtəlif məişət avadanlıqlarının hazırlanması texnologiyanın müsbət tərəfləridir. Çünki, bunlar insan həyatını rahatlaşdırır və daha komfort edir. Lakin texnologiyanın son dərəcə inkişaf etməsi onların oturaq və passiv həyat tərzinə meyl etməsinə səbəb oldu. Əvvəllər 5-ci mərtəbəyə ayaqla qalxan insanlar indi 2-ci mərtəbəyə liftlə qalxır. İnsanlar tənbəllikdən qısa məsafələri qət etmək üçün nəqliyyat vasitələrindən istifadə edir.

Bundan başqa texnologiya insanları cəmiyyətdən uzaqlaşdırır. Saatlarla stol arxasında oturub kompyuterlə işləmək uşaqlarda kompyuterdən asılılığa, diqqət dağınıqlığına, onurğa sistemində pozğunluqlara gətirib çıxardır. Eləcə də həddindən artıq yaxın məsafədən kompyuter ekranına baxmaqla görmə funksiyasının zəifləməsinə, yaxındangörmə xəstəliyinə gətirib çıxarır.

Araşdırmalar zamanı məlum olub ki, texnologiyanın ətraf mühitə yaydığı şüalar beyin hüceyrələrinə ciddi təsir edərək bir çox xəstəliklərin yaranmasına səbəb olur. Passiv həyat tərzi gənc nəsildə hipoteniya, nevroz, şəkər kimi xəstəliklərə şərait yaradır. Çalışmalıyıq ki, texnologiyadan istifadə etməklə bərabər daha çox aktiv həyat tərzinə üstünlük verək. Bu sahədə valideynlərin üzərinə də böyük məsuliyyət düşür. Onlar övladlarının internet və telefonla məşğul olmasına nəzarət etməli, övladlarını aktiv həyat tərzinə yönləndirməlidirlər".

Psixoloq Vüsalə Əmiraslanova: "Günümüzdə kifayət qədər idman edən insanlar var. Bəzi insanlar isə tənbəlliyin daşını ataraq həm idman edir, həm də sağlam qidalanır. Amma ümumən insanlarda karantindən sonra tənbəllik çox artıb. İnsanlar sosial mediaya daha çox meyilli olublar və vaxtlarını da oturaq şəkildə orada keçirirlər. Onlayn təhsil də onlarda tənbəllik yaradıb. Amma zaman keçdikcə insanlar yenidən öz sağlam həyatlarına qayıdırlar.

Tənbəllik ümumi genetik ola bilir. Yəni, burada genetika da rol oynayır. Lakin daha çox insanın şəxsiyyət tipindən də asılıdır.

Psixoloq Mahuxanım Teymurova: "Əvvələr texnologiya bir o qədər inkişaf etməmişdi. İnsanlar ehtiyaclarını qarşılamaq üçün müəyyən yerlərə gedib, həll etməli idilər. Məsələn, geyimə ehtiyacları var idisə bir-bir mağazalara gedib məhsulu yoxlamalı idilər, bank, "ASAN XİDMƏT" kimi dövlət qurumlarına müraciət edərək gedib saatlarla növbə gözləyirdilər. Lakin hal-hazırda hər şeyi onlayn həll etməyin mümkün olması insanları tənbəlləşdirib.

Hal-hazırda hər şeyi ONLAYN şəkildə asanlıqla həll edə bilirik. Geyimləri istər saytlardan, istərsə də sosial şəbəkədən rahatlıqla baxıb ala bilirik. Bu vəziyyət də insanların hər şeyi evdən həll etməsinə gətirib çıxarıb və beləliklə insanlar passiv həyat şəraiti yaşayırlar. Bu da onların tənbəlləşməsinə gətirib çıxarır".

**Ayşən Vəli**

# YENİ VİRUS YAYILIB: Azərbaycanda qapanmalar olacaq?



***""Omikron" ştammının nə dərəcədə təhlükəli olması hələ araşdırma mərhələsindədir. Sadəcə yoluxmanın intensivliyinin çox yüksək olduğu məlumatları var. Bu məlumatlar əsasında da bütün ölkələr "omikron" ştammının təhlükəliliyinin araşdırılması baxımından ciddi tədbirlər həyata keçirir". Bu sözləri SİA-ya açıqlamasında deputat, həkim Müşfiq Məmmədli deyib.***




Onun sözlərinə görə, yeni araşdırma barədə məlumatlar daxil olana qədər fakt qarşısında qalınmasın: "Həm də Afrika ölkələrində vaksinasiya prosesinin çox zəif aparılması nəticəsində təhlükə artır. Mutasiyaların xəstəliyin öldürücülüyü və ağırlaşması istiqamətində olduğu ilə bağlı tam dəqiq məlumatlar yoxdur".

"Bu baxımdan görülən tədbirlər sırf profilaktik məqsəd daşıyır. Dolğun məlumatlar gəldikdə isə Ümümdünya Səhiyyə Təşkilatı və digər səhiyyə sturukturlarında artıq bu barədə qəti fikir söyləmək olar. Bu barədə hələ qəti fikir ondan ibarətdir ki, çox güclü yoluxuculuq qabiliyyətinə malikdir".

***Ayşən Vəli***

# Bakı şəhərində Aşıq Ələsgərin abidəsi ucaldılacaq

***Azərbaycan aşıq poeziyasının böyük sənətkarlarından biri, qüdrətli söz ustadı Aşıq Ələskər zəngin irsi ilə Azərbaycan, ümumən türk şeirinə misilsiz töhfələr vermiş el sənətkarıdır. Onun yaradıcılığı bir həyat çeşməsidir, çağlayan bulaqdır ki, poetik ruhlu şeirləri daş yaddaşlara hopdurmuşdur. Poetik çalarlı, lirik düşüncəli yaradıcılığı ilə çox incə məqamlara toxunan aşıq söz xəzinəsi ilə özünə əbədi və tarixdən silinəz bir sənət mülkü yaratmışdır.***



Xalqın milli düşüncəsinə, ruhuna yaxın yaradan aşıq milyonlarla insanın dillər əzbəri olan şeirlərin müəllifi kimi şöhrətləndi. Xalq çeşməsindən su içmiş Aşıq Ələskər yaradıcılığı söz dünyasında dəst-xətti, fərdi üslubu ilə seçilmiş və yeni çalarları ilə aşıq yaradıcılığında yeni bir mərhələ yaratmışdır. Aşıq poeziyasını həyati müşahidələrlə zənginləşdirərək, həm məzmun, həm də forma rəngarəngliyi ilə seçilən - dodaqdəyməz, müxəmməs, qıfılbənd, təcnis, cığalı təcnis, gəraylı, divani və s. bu kimi şeir növləri ilə yaradıcılıq irsinə rəngarənglik bəxş etmiş və ustad aşıq olduğunu təsdiqləmişdir.El sənətkarı dövrünün bir sıra görkəmli aşıqlardan dərs almış, özündən sonra gələn aşıqlara qüvvətli təsir göstərmişdir. Demək olar ki, aşıq yaradıcılığının bütün sahələrinə müraciət etmiş və Azərbaycan ədəbiyyatında böyük iz buraxmışdır. Belə sənətkarlara dövlətimiz tərəfindən böyük diqqət göstərilir. Onların yaradıcılığına böyük qiymət verilir, yubiley tədbirləri keçirilir. Bu, Azərbaycan milli mədəniyyətinə, sənətinə olan diqqətdən qaynaqlanır.

Bildiyimiz kimi, bu il Aşıq Ələsgərin 200 illik yubileyinin qeyd edilməsi haqqında Azərbaycan Respublikası Prezidenti İlham Əliyev 18 fevral 2021-ci il tarixində Sərəncam imzalayıb. Sərəncamdan irəli gələrək, çoxəsrlik keçmişə malik aşıq sənəti ənənələrinə ən yüksək bədii-estetik meyarlarla yeni məzmun qazandırmış, xalq ruhuyla həmahəng əsərləri ilə Azərbaycanın mədəni sərvətlər xəzinəsinə misilsiz töhfələr bəxş etmiş Aşıq Ələsgərin anadan olmasının 200-cü ildönümü ölkəmizdə təntənəli şəkildə qeyd olunmaqdadır. Böyük sənətkarın vətənpərvərlik hisslərini aşılayan, doğma təbiətimizi vəsf edən yaradıcılıq dünyası Azərbaycan ədəbiyyatının parlaq səhifələrindəndir. Aşıq sənətində öz çəkisi olan Aşıq Ələsgər çox sayda yetirmələrindən ibarət bir məktəb formalaşdırmış və gələcəyin məşhur el şairlərinə qüvvətli təsir göstərmişdir. Onu da vurğulamaq yerinə düşər ki, Azərbaycan aşıq sənətinin ümumbəşəri dəyərlər sırasında qorunan dünya qeyri-maddi mədəni irs nümunələri siyahısına salınması həm də Aşıq Ələsgər sənətinə ehtiramın təzahürüdür.

Bu günlərdə isə Azərbaycan Prezidenti İlham Əliyev Azərbaycan aşıq yaradıcılığının görkəmli nümayəndəsi, böyük el sənətkarı Aşıq Ələsgərin xatirəsinin əbədiləşdirilməsi məqsədilə Bakı şəhərində ustad sənətkarın abidəsinin ucaldılması məqsədi ilə Sərəncam imzalayıb. Sərəncama əsasən, Bakı Şəhər İcra Hakimiyyəti Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi ilə birlikdə Aşıq Ələsgərin abidəsinin ucaldılması ilə bağlı tədbirlərin həyata keçirilməsini təmin edəcək. Vurğulamaq yerinə düşər ki, Aşıq Ələsgərin zəngin poetik irsinin geniş tədqiqi, nəşri və təbliğinin mühüm mərhələsi Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır. Sənətkarın yubileyləri məhz Ulu Öndərin təşəbbüsü ilə dövlət səviyyəsində qeyd edilmişdir. Böyük söz ustadının respublikamızda və onun hüdudlarından kənarda 150 illik yubiley mərasimləri keçirilərkən əlamətdar hadisə baş vermiş, azərbaycanlıların əzəli yurdlarından olan qədim Göyçə mahalında, doğulduğu kənddə Aşıq Ələsgərin qəbirüstü abidəsi ucaldılmışdı. Həmin əzəmətli büst soydaşlarımız öz dədə-baba torpaqlarından didərgin salındıqdan sonra erməni vandalları tərəfindən dağıdılsa da, milli-mədəni varlığımızın tərkib hissəsinə çevrilmiş Aşıq Ələsgər irsi silinməz tarixi yaddaş rəmzi kimi yaşamaqdadır.

***Zümrüd BAYRAMOVA***

şərh

# "Fransa kiçik bacısı olan Ermənistandan maşa kimi istifadə edir"

***"Fransanın mövqeyi Azərbaycan üçün, Azərbaycanın ictimaiyyəti üçün yeni deyil. Çox yaxşı xatırlayırıq ki, Ermənistan Azərbaycan torpaqlarını işğal altında saxladığı dövrlərdə Fransa ilə separatçı Dağlıq Qarabağ rejimi arasında kifayət qədər sıx əlaqələr mövcud idi".***



Bu sözləri SİA-ya aşıqlamasında deputat Elşad Mirbəşiroğlu deyib. Onun sözlərinə görə, Fransa bələdiyyələri separatçı rejimlə qardaşlıq müqavilələri imzalayırdı: "Təbii ki, Azərbaycan bütün bunların nəticələrinin aradan qaldırılması üçün öz imkanlarını səfərbər edirdi və real nəticələrə nail olurdu. Amma eyni zamanda biz bilirdik ki, ATƏT-in Minsk qrupu bütünlükdə münaqişənin tənzimlənməsi istiqamətində nəinki səmərəli fəaliyyət göstərə bilmir, ümumiyyətlə belə bir istəyi yoxdur. Bu qrup sanki münaqişə vəziyyətinin qalması istiqamətində fəaliyyət göstərirdi. Biz ATƏT-in Minsk qrupunun münaqişə vəziyyəti ilə bağlı heç vaxt obyektiv mövqeyinə rast gəlməmişik. ATƏT-in Minsk qrupu münaqişəni tənzimləmək istəyirdisə hər şeydən öncə bu münaqişənin predmetinə obyektiv bucaqdan yanaşmalı idi, yəni mütləq şəkildə o nöqtədən çıxış etməli idi ki, Ermənistan Azərbaycan torpaqlarını işğal edib və məhz münaqişənin tənzimlənməsi də bu konteksdə həyata keçirilməli idi. Yəni Ermənistanın işğalçılıq siyasətinin nəticələri aradan qaldırılmalı idi ki, münaqişənin tənzimlənməsinə nail olsun. Amma biz bunların heç birini görmürük. Azərbaycan öz gücü hesabına torpaqlarını işğaldan azad edib.

Təəssüf doğuran məqamlardan biri də budur ki, ATƏT-in Minsk qrupunun həmsədr ölkəsi olan Fransa ən azından neytral mövqe sərgiləməli olduğu halda açıq-aşkar təcavüzkar, təxribatçı Ermənistanı özünün kiçik bacısı adlandıraraq onun tərəfini saxlamışdır. Fransa açıq şəkildə Azərbaycanın ərazi bütövlüyünə hörmətsizlik etmişdir. Bu, əlbəttə ki, bütövlükdə Fransanın bir dövlət kimi nüfuzuna xələl gətirir. Fransa unudur ki, özünü doğrultmayan bir dövlət olan Ermənistan Fransanın Cənubi Qafqaz regionundakı hər hansı bir maraqlarının qorunmasına töhfə verə bilməz. Amma Azərbaycan kimi bir dövlətlə, yəni Fransa ilə yaxşı münasibətlərə malik olan bir dövlətlə münasibətləri korlamaq, əlaqələri zəiflətmək hər şeydən öncə Fransanın özünə zərər verəcəkdir. Azərbaycan Vətən müharibəsində inamlı qələbə qazandı, özünün güc mövqeyini müəyyən etdi və bu gün Azərbaycanın güc mövqeyi ilə dünya ölkələri barışıblar.

O ki qaldı Fransanın ölkəmizə hansısa təzyiqlər göstərmə cəhdlərinə hesab edirəm ki, Fransanın belə bir real imkanı mövcud deyil. Cənubi Qafqaz regionunda Fransanın təsir etmək imkanları minumuma endiyinə görə o bu gün kiçik bacısı olan Ermənistandan daha çox maşa kimi istifadə etməyə çalışır və ermənilər də görəcəklər ki, bir xalq, dövlət olaraq maşa statusundan kənara çıxa bilmirlər. Fransa Ermənistanı bir növ alət rolunda görür. Onlardan istifadə edərək Cənubi Qafqazda hansısa təsir imkanlarını təmin etməyə çalışır. Bu da baş tutmayacaq. Regionda artıq geo-siyasi konfiqurasiya formalaşıb. Təbii ki, Azərbaycan öz güc mövqeyində də möhkəmlənməkdədir. Digər tərəfdən isə Fransada seçkilər yaxınlaşır. Hər seçki öncəsi namizədlər erməni elektratının dəstəyindən istifadə etməyə çalışırlar və seçki öncəsi erməniləri müvəffəqiyyətlə aldatmağa nail olurlar. Amma bu proseslər bitdikdən sonra ermənilər ənənəvi olaraq heçnəsiz qalırlar. Düşünürəm ki, Fransa prezidenti Emmanuel Makronun siyasəti də bundan ibarətdir. Seçkilərdə qalib gəlmək üçün erməni lobbisindən istifadə edir. Cənubi Qafqaz regionundakı proseslər ölkəmizin haqlı və ədalətli mövqelərinə uyğun cərəyan etməlidir. Azərbaycan prosesləri məhz bu istiqamətdə yönləndirmək imkanlarına malikdir".

***Abutel İlhamqızı***




# İlham Əliyev: “Bir güllə atmadan biz Laçın rayonunu qaytardıq”

***44 gün davam edən Vətən müharibəsində Azərbaycan Ordusu işğal altında olan ərazilərimizi düşməndən azad etdi və tarixi ədalət bərpa olundu, Azərbaycan ordusunun əzmi, qətiyyəti, peşəkarlığı, vətənpərvərliyi təcavüzkar erməniləri torpaqlarımızdan təmizlədi. Bütün Azərbaycan xalqı Ali Baş Komandanın ətrafında bir yumruq olaraq birləşdi və xalq-iqtidar birliyi bu qələbənin qazanılmasında əsas amillərdəndir.***

Noyabrın 10-da Azərbaycan Prezidenti, Rusiya Prezidenti və Ermənistan baş nazirinin birgə imzaladığı bəyanatla, 10 noyabr 2020-ci il tarixində Qarabağ münaqişəsi zonasında atəşin və bütün hərbi əməliyyatların tam dayandırılması elan olundu. Həmin sənəd əsasında Kəlbəcər, Ağdam və Laçın rayonları Azərbaycana qaytarıldı. 30 ilə yaxın idi ki, Azərbaycanın beynəlxalq birlik tərəfindən tanınan tarixi torpaqları Ermənistanın işğalı altında idi. Bu işğal və etnik təmizləmə siyasəti nəticəsində torpaqlarımızın 20 faizi işğal edilmiş və 1 milyondan çox azərbaycanlı məcburi köçkün, qaçqın vəziyyətində yaşayırdı. Artıq məcburi köçkünə dönmüş soydaşlarımızın üzərindən bu statusun götürülməsi hər kəsin sevincinə səbəb olub. Ölkəmizin son illərdə dinamik inkişafı, silahlı qüvvələrin büdcəsinin artması və nəticədə ordumuzun güclənməsi Azərbaycanın Vətən müharibəsində döyüş meydanında öz sözünü demiş oldu. Dövlət başçısının vurğuladığı kimi, bu gün Azərbaycan Ordusu dünyada 50 ən güclü ordu sırasındadır. ”Biz bunu yorulmaz fəaliyyət nəticəsində əldə etmişik”, - deyən dövlət başçısı Prezident kimi fəaliyyətində ordu quruculuğunun birinci yerdə olduğunu diqqətə çəkib. Bu gün güclü Azərbaycan ordusunun qələbəsi köçkünlərin doğma yurdlarına qayıtmasına səbəb oldu.

### “DÖYÜŞ MEYDANINDA ƏLDƏ EDİLMİŞ PARLAQ QƏLƏBƏ BU GÖZƏL NƏTİCƏYƏ GƏTİRİB ÇIXARDI Kİ, ÜÇ RAYONUMUZ - AĞDAM, KƏLBƏCƏR VƏ LAÇIN BİZƏ QAYTARILDI”

Bu gün 1 dekabr tarixində tarixi torpağımız Laçın Azərbaycana qaytarıldı. Azərbaycan Prezidenti İlham Əliyev Laçın rayonunun işğaldan azad olunması münasibətilə Azərbaycan xalqına müraciətində bu xoş müjdəni çatdırarkən bildirmişdir: ”Laçın rayonunun işğaldan azad olunması tarixi hadisədir. Özü də bir güllə atmadan biz Laçın rayonunu qaytardıq. Düşməni buna məcbur etdik. Döyüş meydanında əldə edilmiş parlaq qələbə bu gözəl nəticəyə gətirib çıxardı ki, üç rayonumuz - Ağdam, Kəlbəcər və Laçın bizə qaytarıldı. Biz bu rayonları bir güllə atmadan, bir şəhid vermədən qaytarmışıq”.



Xatırladaq ki, Laçın rayonu 18 may 1992-ci ildə erməni silahlı qüvvələri tərəfindən işğal edilmişdir. İşğal nəticəsində 264 nəfər şəhid olmuş, 65 nəfər girov götürülmüş, 103 nəfər əlil olmuşdur. Rayon üzrə 1 yaşdan 16 yaşadək mövcud olan 24374 nəfər uşaqdan 18 nəfəri şəhid, 225 nəfəri əlil olmuş, 1071 nəfəri bir, o cümlədən 31 nəfəri hər iki valideynindən yetim qalmışdır. İşğal ilə əlaqədar rayona 7,1 milyard ABŞ dolları dəyərində ziyan dəymişdir.

”Laçın rayonunun bizə qaytarılması, əlbəttə ki, tarixi məsələdir. Biz müharibə zamanı təqribən 5 min, 5 min kvadratkilometrə yaxın ərazini döyüş meydanında azad etdik, müharibə yolu ilə azad etdik”,-deyən dövlət başçısı onu da deyib ki, 5 min kvadratkilometrə yaxın ərazini artıq sülh yolu ilə qaytardıq: ”Əlbəttə, buna sülh yolu ilə qaytarmaq demək olmaz. Biz düşməni məcbur etdik və düşmən artıq uçurum kənarında idi, tamamilə məhv olurdu”.



### “LAÇIN RAYONUNUN İŞĞALI İMKAN VERDİ Kİ, ARTIQ ERMƏNİSTAN İLƏ DAĞLIQ QARABAĞ ARASINDA YOL BAĞLANTISI OLSUN”

Azərbaycanın ən böyük rayonlarından biri olan Laçında işğala qədər rayonda təqribən 50 mindən bir qədər çox əhali yaşayırdı. Hazırda Laçın rayonunun əhalisi 80 min nəfərə çatıb. ”Laçın rayonunun işğal altına düşməsi böyük faciə idi. Mən bir daha demək istəyirəm ki, hər bir rayonun işğal altına düşməsi faciə idi. Amma Laçın rayonunun işğalı imkan verdi ki, artıq Ermənistan ilə Dağlıq Qarabağ arasında yol bağlantısı olsun”, - deyən Prezident İlham Əliyev bildirib ki, 1992-ci ilin may ayında Şuşanın işğalından bir neçə gün sonra Laçının işğal altına düşməsi böyük itkimiz idi: ”Artıq Ermənistan bu dəhliz vasitəsilə silah-sursat, canlı qüvvə göndərirdi. Əlbəttə ki, bu, böyük itkilərə gətirib çıxardı. Ondan təxminən bir il sonra Kəlbəcər rayonu işğal altına düşdü. Demək olar ki, bütün bunlar sonrakı işğal üçün zəmin yaratdı. Onu da bir daha demək istəyirəm ki, Laçın rayonu işğala məruz qalanda Bakıda hakimiyyət uğrunda mübarizə gedirdi. Bu mübarizəni aparanlar Laçını, Şuşanı, Kəlbəcəri düşmənə satdılar, demək olar ki, Azərbaycan dövlətçiliyini uçurum kənarına qoydular. Biz bütün bu tarixi yaxşı xatırlayırıq”. Əlbəttə ki, Kəlbəcər və Laçın rayonlarının çox çətin relyefi var idi. Müharibə dövründə çətin relyefi nəzərə alsaq böyük itkilərin ola biləcəyi istisna deyildi. Cənab Prezidentin vurğuladığı kimi, ”Həm Ağdam, həm Laçın, həm Kəlbəcər rayonlarının azad edilməsi işində böyük itkilərimiz ola bilərdi və böyük vaxt sərf olunacaqdı. Ona görə bizim qələbəmiz tarixi Qələbədir. Biz bir neçə rayonu döyüş meydanında düşməndən azad etdik, üç rayonu düşməni məcbur edərək qaytardıq”.




Azərbaycan Prezidenti erməni işğalçılarından azad edilmiş torpaqlarda hər tərəfin infrastrukturun dağıdıldığını, binaların söküldüyünü, hər yeri viran qoyduqlarını bildirərək həmin bölgələrdə, rayonlarda normal həyat üçün bütün addımların atılacını diqqətə çatdırmışdır. ”Laçın rayonunda bizim böyük meşə sahələrimiz var - ərazinin 22 min hektarı meşə sahəsidir”, - deyən Cənab Prezident mənfur, vəhşi düşmənin bizim meşələrimizi 30 il ərzində qırıb, taladığını bildirmişdir: ”Onu da bildirməliyəm ki, bizim böyük çayımız - uzunluğu 100 kilometrdən çox olan Həkəri çayının mənbəyi Laçın rayonundadır. Bu da böyük strateji əhəmiyyətə malik olan məsələdir. Deyə bilərəm ki, bizim 10-dan çox böyük və kiçik çayımızın mənbəyi işğaldan azad edilmiş torpaqlardadır. Onların arasında 4 çayı xüsusilə qeyd etmək istərdim. Çünki bu çayların uzunluğu 100 kilometrdən çoxdur. Tərtərçay 200 kilometr, Bazarçay 180 kilometrə yaxın, Xaçınçay 120 kilometrə yaxın - bu 3 çay Kəlbəcər rayonunda yerləşir. Həkəri çayı da böyük çaylarımızdan biridir, uzunluğu 100 kilometrdən çoxdur”.

### “BU QƏLƏBƏ AZƏRBAYCAN TARİXİNDƏ ƏBƏDİ QALACAQ, ŞANLI QƏLƏBƏ KİMİ!”

Azərbaycanın əzəli, tarixi torpaqları bu gün işğaldan azad olunub. Hər bir ərazidə böyük abadlıq-quruculuq işlərinə başlanılıb. Eləcə də bir əvvəl düşmən işğalından azad olunan Laçınımızda. ”Hər kəs gücümüzü gördü. Hər kəs qüdrətimizi gördü, iradəmizi gördü”, - deyən Prezident bildirib ki, bu dəmir yumruq onların belini qırdı, onların başını əzdi: ”Bu, birlik yumruğudur, bu, güc yumruğudur. Bundan sonra Azərbaycan yalnız inkişaf, tərəqqi yolu ilə gedəcək. Bundan sonra da biz ordu quruculuğu işində əməli addımlar atacağıq, ordumuzu daha da gücləndirəcəyik. Bütün göstərişlər verildi. İradəmiz də var, təcrübəmiz də var - əvəzolunmaz təcrübə. İndi bütün ölkələr bu Vətən müharibəsinin təcrübəsini öyrənirlər. Vəsaitimiz də var. Xalq-iqtidar birliyimiz də var. Biz göstərmişik ki, böyük xalqıq, qürurlu xalqıq. Düşməni yerə vurduq. Düşmənin belini qırdıq, məhv etdik. Bu, tarixi Qələbədir. Bu Qələbə Azərbaycan tarixində əbədi qalacaq, şanlı Qələbə kimi!”

*Nəzakət ƏLƏDDİNQIZI*

Təhlil

# Çobanlar ermənilərin əsas məlumat mənbəyidir?..



***Vaxtilə Ermənistan Müdafiə nazirliyi səlahiyyətlisi olan Artsrun Hovannisyan bu idarəni necə "hörmətdən" salıbsa, sonradan gələn çoxsaylı müdafiə nazirləri hələ də bu hörməti geri qaytara bilməyiblər. Məsələ bundadır ki, bu gün nazirliyin rəsmi ad altında verdiyi bütün açıqlamalara ölkədə qalan ermənilərin heç biri inanmır. Çünki, onlar Ermənistan Müdafiə nazirliyinin Hovannisyandan qurtulsalar da, amma onun yalanlarından hələ də qurtulmadığına inanırlar.***

Qeyd edək ki, ötən gün nazirlik Azərbaycan qoşunlarının guya suveren Ermənistanın İşxanasardakı suveren ərazisindən çıxması ilə bağlı yayılan xəbərə münasibət bildirib. Amma sorğuya cavab olaraq, ”Armenpress” saytı bu xəbəri nə təsdiq, nə də təkzib edib.

Məsələ bundadır ki, yenə də erməni rəsmi məlumatına görə, guya Azərbaycan hərbi birləşmələri Ermənistanın suveren ərazisinin 41 kvadrat kilometrini ”işğal edib”.

Təbii ki, bu qəbuledilməz kimi qəbul edilməlidir. Çünki, həmən ”işqal olunmuş” ərazilərə yaxın kəndlərdə yaşayan etmənilər çox qorxurlar. Üstəlik, Azərbaycan əsgərlərinin erməni kəndinə yaxın olması bu ərazidə yaşayanlar üçün problemlər yaradır və hətta onların erməni qonşusuna geib gəlməsinə də maneçilik törədir.

Maraqlıdır ki, Ermənistan Müdafiə nazirliyinin rəsmi açıqlamasına inanmayan İşxanasər kəndinin başçısı, kəndə təşrif buyuran erməni sayt əməkdaşlarının təhriki ilə yerli çobanlardan bir neçəsini təlimatlandıraraq qabaqlarına bir necə qoyun-quzunu salıb Azərbaycan əsgərlərinin mövqe tutduqları istiqamətə ”kəşfiyyata” göndəriblər.

Ermənilərin ”News.am” saytı ”kəşfiyyatdan” sap-sağlam dönən həmən çobanların dediklərini kəndinin başçısının dilindən nöqtə və vergülünə toxunmadan oxucularına çatdırıb: ”...Bizim kəndin çobanları tarladan gəlib deyirlər ki, orada heç bir Azərbaycan əskəri yoxdur. İndi orda çox soyuqdur deyə, neçəsinin gedib, neçəsinin qaldığını bilmirlər. Qalanlar da gözə dəymir. Nə hər hansı bir avadanlıq, nə də bir texnika görünmür”.

Deyim ki, erməni çobanlarının ”süçaətindən” riqqətə gələn sayt əməkdaşları kənd başçısına gərəkli tövsiyələrini də veriblər.

Məsələn, onların dediyinə görə, ”...düşmənin tələbləri nə qədər ultimatum xarakterli səslənsə də, amma buna baxmayaraq, ümidsiz vəziyyətdən də çıxış yolu var. Bunun üçün qərarı qəbul edən şəxs alçaldılmış və məyus insan olmamalıdır. O prinsipial və özünə hörmət edən şəxs olmalıdır”. Nə gözəl!

Belə görünür ki, onlar indi də, prinsipial və özünə hörmət edən erməni axtarışına çıxıblar. Amma deyəsən onların belə bir ”prinsipial” erməni axtarışı hələ ki, müsbət həllini tapmayıb. Mən bunu onların sadə çobanın xidmətindən yararlandıqlarını əsas gətirərək deyirəm. Amma..

...Bəzi erməni başbilənləri erməni əsgərlərinə, onların rəhbərlərinə çağırış edib onlara Azərbaycan əskərindən qorxmamağı məsləhət görürlər, çünki onların təbirincə, ”...Azərbaycan əsgəri heç bir halda ”qəhrəman erməni əsgərləri”ndən daha cəsur və vətənpərvər deyil, sadəcə olaraq onlar bizdən fərqli olaraq, üzərlərinə götürdükləri döyüş tapşırığı və qərargah işlərini daha ləyaqətlə həyata keçirirlər”.

...İnanın ki, bu da erməni etirafıdır.

***Ağasəf Babayev***

## Peşə Təhsili üzrə Dövlət Agentliyi və ”Azerconnect” şirkəti arasında Anlaşma Memorandumu imzalanıb

Peşə Təhsili üzrə Dövlət Agentliyi və ”Azerconnect” şirkəti arasında əmək bazarının tələblərinə uyğun kadr hazırlığının dəstəklənməsi məqsədilə Anlaşma Memorandumu imzalanıb. Memorandum kadr ehtiyaclarının öyrənilməsi, razılaşdırılmış ixtisaslar üzrə kadr hazırlığının təşkil edilməsi və tədris proqramlarının hazırlanması istiqamətində birgə əməkdaşlığı nəzərdə tutur.

Peşə Təhsili üzrə Dövlət Agentliyinin direktoru Valeh Mirzalıyev bildirmişdir ki, ”İşəgötürənlərin peşə təhsili və təlimi sisteminə inteqrasiyası strateji hədəflərdən biridir. Peşə təhsil müəssisələri əmək bazarının ehtiyaclarına uyğun kadrların hazırlanması istiqamətində işəgötürənlərlə müxtəlif səviyyələrdə əməkdaşlıq etməkdə hər zaman maraqlıdır. Bu istiqamətdə birgə əməkdaşlıq peşə təhsil müəssisələrinin real iş təcrübəsinə əsaslanan kadr hazırlığına dəstək göstərəcək.”

”Azerconnect” şirkətinin Baş direktoru Emil Məsimov qeyd etmişdir ki, ”İKT sahəsində çalışan ən böyük işəgötürənlərdən biri olaraq yerli əmək bazarının fərqli imkanlarının öyrənilməsi və şirkətimizə peşəkar işçi qüvvəsinin cəlb edilməsini daim diqqət mərkəzində saxlayırıq. İnanırıq ki, Peşə Təhsili üzrə Dövlət Agentliyi ilə dövlət-özəl əməkdaşlığı formatında qurulan münasibətlərimiz peşə təhsilli vətəndaşlarımızın İKT sektorunda əmək fəaliyyətinə cəlb olunmasına, eləcə də yerli əmək bazarının potensialının daha da gücləndirilməsinə öz töhfəsini verəcəkdir”.

Qeyd edək ki, artıq əməkdaşlıq çərçivəsində ”Ön ofis/satış təmsilçisi”, ”İPTV üzrə quraşdırma mütəxəssisi” və ”Əlaqə Mərkəzi Operatoru” istiqamətləri üzrə təlimlərin icrasına başlanılıb. Təlimlər ənənəvi və ya hibrid formatda (həm onlayn, həm də ənənəvi) sahə üzrə çalışan mütəxəssislər tərəfindən tədris edilir. Təlimlərin keçirilməsində nəzəri biliklərlə bərabər, praktiki bacarıqların verilməsinə xüsusi önəm verilir.

## “Avropa məhkəməsi saxta balans yaratmaq istəyir”



***"Avropanın bir sıra strukturlarından, o cümlədən də Avropa İnsan Haqqları Məhkəməsindən biz dəfələrlə Azərbaycana və Ermənistana fərqli və qərəzli yanaşmaların şahidi olmuşuq. Hələ Qarabağ münaqişəsinin həll olunmadığı dövrdə Azərbaycandan Avropaya İnsan Haqqları Məhkəməsinə gedən şikayətlərə baxılması və Ermənistandan gedən şikayətlərə baxılmasının dinamikası və qəbul olunmuş qərarların müqayisəsi belə bir qənaətə gəlməyə xeyli əsas verir". Bu sözləri SİA-ya açıqlamasında siyası şərhçi Aydın Quliyev deyib.***

Onun sözlərinə görə, illər boyu Avropa məhkəməsi digər Avropa strukturları kimi guya Azərbaycanın və Ermənistanın arasında bir saxta balans yaratmaq məqsədilə hər iki ölkəyə eyni münasibət sərgiləməklə məşğul olub: ”O cümlədən də Avropa məhkəməsi adətən Azərbaycandan Ermənistanın əleyhinə Avropa məhkəməsinə verilmiş bir şikayətə baxılan kimi dərhal Ermənistandan da verilən bir şikayətə baxılırdı. Beləliklə də Avropa məhkəməsi sanki Azərbaycanın və Ermənistanın arasında saxta bir balans yaratmaq istəyirdi. Halbuki, Azərbaycanlıların Ermənistandan 1988-1990-cı illərdə qovulmuş 250 min azərbaycanlının təkcə məruz qaldıqları maddi itki, onlara vurulan əmlak ziyanlarını hesablamaq üçün dəhşətli rəqəmlər işlətməyə ehtiyac var. Hansı ki, bu insanlar bütün ömür boyu topladıqlarını Ermənistanda qarətçilərə təhvil verib çıxmağa məcbur olmuşdular. Amma buna baxmayaraq onların çox cüzi bir hissəsinin Avropa məhkəməsində qaldırdıqları məhkəmələr, iddialar icraata qəbul olundu. Halbuki, Azərbaycandan heç vaxt heç bir erməni qovulmayıb, sadəcə olaraq ermənilər bütün əmlaklarını rahat şəkildə Bakıdan, eləcə də digər bölgələrdən sataraq bu ölkəni tərk ediblər. Ona görə də sonuncu dəfə noyabrın 16-da Azərbaycana qarşı sərhədlərdə təxribat törədərkən Ermənistanın bir neçə əsgərinin Azərbaycan silahlı qüvvələri tərəfindən mühasirəyə alınaraq saxlanması indi Avropa məhkəməsini çox ”ciddi” bir hərəkətə keçməyə məcbur edir”.



Aydın Quliyev sözlərinə belə davam edib: ”Mən bu ciddi sözünü dırnaqda işlədirəm çünki, təkcə birinci Qarabağ müharibəsi vaxtı Azərbaycanın 4 mindən artıq vətəndaşının qeyri-müəyyən şəraitdə itkin düşməsinə baxmayaraq ancaq indiyə qədər Avropa məhkəməsi digər Avropa strukturları kimi o insanların taleyinə heç bir lazımi və həssas münasibət göstərməyib. Baxmayaraq ki, dəfələrlə bununla bağlı müraciət olunub. Amma indi 16 nəfər, həm də təxribatçı və Azərbaycanın dövlət sərhədlərini cinayətkarcasına pozaraq bizim ərazilərimizə basqın etmiş erməni əsgərinin əsir düşməsi Avropa məhkəməsini və başqa Avropa strukturlarını narahat edir. Bir sözlə, Avropa məhkəməsi hazırkı şəraitdə də noyabrın 16-da əsir düşmüş erməni əsgərlərinin taleyinə də münasibətdə siyasi yanaşır. Burada həmin əsgərlərin hansı şəraitdə əsir düşmələrinin araşdırılmasından daha çox Ermənistanın tərəfini saxlamaq motivi hiss olunur. Halbuki, həmin əsgərlər məhz bizim ərazilərimizə hücum etdiklərinə və təcavüzkar olduqlarına görə ordumuz tərəfindən zərərsizləşdirilib”.

***Ayşən Vəli***

***Məlum olduğu kimi, Ermənistanın hərbi-siyasi rəhbərliyi noyabrın 16-da Zəngəzur vilayəti ərazisində məhz ermənilərin aşkar təxribatı nəticəsində baş vermiş silahlı qarşıdurma zamanı əsir düşmüş hərbçiləri ilə bağlı Avropa İnsan Haqları Məhkəməsinə müraciət edib. Adıçəkilən təşkilat da dərhal həmin müraciəti cavablandırıb və diversantların azad olunması ilə bağlı Azərbaycan tərəfinə dekabrın 1-nə qədər vaxt verib.***



Azərbaycan Respublikasının
Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb.*

# Avropa məhkəməsinin ikili standartı: Cinayətkarlar azad olunsun, dinc girovlar qalsın



Bildiyimiz kimi, həm Birinci Qarabağ müharibəsi, həm də İkinci Qarabağ müharibəsi dövründə təcavüzkar Ermənistanın hərbi-siyasi rəhbərlikləri Azərbaycana qarşı işğalçılıq siyasəti apararkən öz hərbi cinayətkarlıqları ilə dinc əhalimizi də hədəfə alıb. İstər əsir düşmüş hərbçilərimiz olsun, istərsə də hərbi mükəlləfiyyətləri olmayan vətəndaşlarımız olsun- onların hər biri bilavasitə erməni vəhşiliklərinin qurbanları hesab olunurlar. Çünki bugünə qədər 4 minə qədər əsir və itkin düşmüş vətəndaşlarımız barədə ümumiyyətlə, heç bir məlumatlar verilməyib.

Baxmayaraq ki, Azərbaycan dəfələrlə sözügedən məsələ ilə bağlı istər Avropa İnsan Hüquqları Məhkəməsinə (AHİM) istərsə də digər müvafiq beynəlxalq insan hüquqları strukturlarına illər boyu çoxsaylı müraciətlər ünvanlayıb. Bu müraciətlərin heç birinə cavab verilməyib, halbuki, AHİM bununla bağlı İrəvan qarşısında qəti tələblər qoymalıydı.

Azərbaycan ərazisində yaşayan və seperatçılıq, quldurluqla məşğul olan erməniləri dəstəkləyən Avropa Məhkəməsi niyə Ermənistandan vəhişəcəsinə qovulan 250 min azərbaycanlının hüququnu qorumayıb? Niyə Azərbaycanın işğal edilmiş ərazilərindən qovulan 700 min köçkünün hüquqlarını qorumur? Son 30 ildə Ermənistan tərəfindən öldürülən 20 minədək azərbaycanlının hesabını soruşmur? Azərbaycanın şəhərlərinə, mülki şəxslərin başına raket yağdıran, dinc insanları öldürən Ermənistanı niyə qınamır? Onda bunun harası İnsan Haqları Məhkəməsi oldu? Bu məhkəmə qərəzli, ədalətsiz mövqeyi ilə necə nüfuzlu ola bilər? Aşkar tərəf tutan Avropa təşkilatları necə bu münaqişədə vasitəçi və ya məsləhətçi ola bilər?

Beləliklə, biz burada aşkar tərəfkeşlik faktını müşahidə edirik. Yəni yüz minlərlə azərbaycanlının taleyi Avropa üçün heç nə hesab edilir, bir neçə nəfər təxribatçı erməni hərbçisi isə Avropa üçün çox əhəmiyyətliymiş (?!) Maraqlıdır, hansı fərqliliyə görə? Yoxsa Avropanın insan hüquqları platforması üçün müsəlman azərbaycanlılar, xristian ermənilərdən sonra müəyyən edilən aşağı qruplara aid edilir? Bu kimi yanaşmanın özü insan hüquqlarına zidd deyilmi? Bu fakt diskriminasiya halı deyilmi?

Azərbaycan ordusu müharibə zamanı belə humanist davrandı, mülki əhaliyə atəş açmadı, mülki şəxslər yaşayan şəhərləri, kəndləri bombalamadı. Ermənistan isə bütün dünyanın gözü qabağında cəbhədən xeyli uzaqda olan şəhərlərə, dinc şəxslərə raket yağdırdı onlarla mülki şəxsi qətlə yetirdi.



İndi buyursun Avropa Məhkəməsi bu cinayətərə görə cavab tələb etsin Ermənistandan.

Azərbaycanın işğal edilmiş ərazilərindəki vəhşilikləri, vandalizmi, terrorizmi Avropa niyə görmür? Azərbaycanın Avropa və dünya tərəfindən də rəsmi qəbul edilmiş sərhədləri daxilində erməni silahlılarının nə axtardığını niyə soruşmur?

Əgər əsirləri dəyişdirmək normal qəbul olunmuş qaydası varhər iki tərəf özündə olan əsirləri təhvl verməlidir. Bəs niyə bir tərəf qaytarmalıdır, o biri tərəf yox? Bunu hansı məntiqə, hansı hüquqa, hansı ədalətə əsasən irəli sürmək olar? Özü də bir tərəfdəki əsirlər terror və təxribat törəödən silahlı diversantlar, digər tərəfdəkilər isə adi dinc vətəndaşlardır. İlk növbədə dinc vətəndaşların qaytarılmasını tələb etmək doğru deyilmi, nəinki cinayətkarların azad edilməsini tələb etmək.

30 ilə yaxın müddətdə erməni əsirliyində 4 min azərbaycanlının taleyi barədə heç bir məlumat olmadığı halda, heç bir ayı tamam olmayan erməni diversantlar barədə AHİM-in əl-ayağa düşməsi, harayhəşir qaldırması, üstəlik Azərbaycana vaxt, müddət şərti irəli sürməsi isə həm siyasi, həm də mənəvi həyasızlıqdır! Təbii ki, Bakı bu cür qəbulolunmaz "standartlarla" illərdir və dəfələrlə rastlaşıb və təəssüf ki, bu gün də haqqında bəhs etdiyimiz mövzu həmin "standartların" tərkib hissəsində yer almaqdadır.

AHİM-in belə həyasızlığına qəti və sərt cavab verilməli, əldə olan bütün çoxsaylı faktlarımız rəsmi qaydada bu məhkəmənin qarşısına qoyulmalı və hətta Ermənistanın girov götürdüyü və indiyədək də qaytarmadığı 4 min azərbaycanlının taleyi barədə Ermənistana konkret vaxtın verilməsi barədə tələblər irəli sürülməlidir.

Artıq dünyanın siyasi çalarları dəyişir və əvvəllər olduğu kimi heç nə daha öncəki "standartlarla" ölçülə bilməz. Belə ki, dünyada yeni və ədalətli standartlar yaranır, yanaşmalar müəyyənləşdirilir- AHİM də ona bənzər digər strukturlar da bu yeni standartlarla ayaqlaşmağa məhkumdurlar.

Yaxşı olardı ki, Avropa Məhkəməsi bir milyon azərbaycanlının uzun illər Ermənistanın işğalçılıq siyasətinin qurbanı olması, evlərindən, yaşayış yerlərindən didərgin düşməsi, ailə üzvlərini itirmələri, soyqırımlara məruz qalmaları barədə düşünsün, onların da hüquqlarını qorusun, İrəvan qarşısında da şərtlər irəli sürsün. Əks halda AHİM heç vaxt Azərbaycan qarşısında şərt irəli sürə, ya da vaxt qoya bilməz, buna nə mənəvi, nə də digər hüquqları çatır!

***Elçin Bayramlı***

ANALİZ

# De Byazi millidə qalır? - AFFA açıqladı



*AFFA ilə müqaviləsi başa çatan milli komandamızın baş məşqçisi Canni De Byazinin yığmamızda qalacağı haqda məlumatlar yayılıb.*

İtalyan mütəxəssisin müqaviləsinin uzadılacağı iddia olunur. Qol.az bununla bağlı AFFA-nın mətbuat xidmətinin rəhbəri Firuz Abdullanın fikirlərini öyrənib. O, İcraiyyə Komitəsinin sabahkı iclasından əvvəl bununla bağlı nəsə deməyin doğru olmadığını bildirib: "Müqavilənin uzadılıb-uzadılmaması, yeni baş məşqçi təyin edilməsi, bütün bunlar İcraiyyə Komitəsinin səlahiyyətindədir. De Byazinin müqaviləsi başa çatıb. Sabah İcraiyyə Komitəsinin iclasında onun hesabatı təqdim olunacaq və millinin baş məşqçisi vəzifəsi ilə bağlı müzakirələr olacaq. Yəni iclasdan əvvəl bununla bağlı səsləndirilən hər hansı fikrin hüquqi əsası yoxdur. İclas olmamış qərar ola bilməz".

Federasiya rəsmisi "Millinin baş məşqçi vəzifəsinə başqa namizədlər varmı" sualını isə belə cavablandırıb: "Hələ ki, o barədə məlumat yoxdur. Namizədlərlə bağlı da İcraiyyə Komitəsi məlumat verməlidir ki, bununla bağlı müzakirələr aparılsın. Ya da İcraiyyə Komitəsinin üzvləri tərəfindən iclasda bu haqda fikirlər səsləndirilə bilər".

***"Uşaqlar və yaşlılar infeksion xəstəliklərdə həmişə risk qrupuna daxildirlər. Amma indi elə bir vaxta gəlib çıxmışıq ki, gənclər də risk qrupundadır. Biz ən çox uşaqları və yaşlıları qoruyuruq. Uşaqlar mütəmadi olaraq pediatr nəzarətində olmalıdırlar". Bu sözləri SİA-ya açıqlamasında qida texnoloqu Ağa Salamov deyib. Qidalara gəlincə uşaqların immun sistemini möhkəm saxlamaq üçün ilk öncə səhər yerməyi sağlam olmalıdır: "Valideynlər səhər yeməyində uşaqlara zeytun, yumurta, çərəzlərdən hazırlanmış dietik desert, peçenyalar, ağartı məhsulları, meyvə, meyvə salatı və təbii kənd qaymağından yoqurt verə bilərlər. Yumurta təbii ki, həkim məsləhəti altında olmalı və allergik xəstəliyi olan uşaqlara məhdud sayda verilməlidir. Ana yeməklərə gəlincə mütləq həftədə 1-2 dəfə balıq olmalıdır. Çünki nəzərə alsaq ki, uşaqlarda boy artımına yardımçı olur. İmmun sistemini gücləndirmək üçün balıqda D vitamini, omeqa-3 var. Balıqda oliqomer zülalı var ki, bu da uşaqların boy artımında dəstəkçi olur. Bu ən çox da skumbriya balıqlarının kürək hissəsində olur".***

"Həmçinin, uşaqların qidalanmasında mütləq şəkildə tərəvəzlər də olmalıdır. Buraya lifli tərəvəzlərdən kök, kabaçki, mövsümi tərəvəzlər mütləq olmalıdır. Qarnir olaraq da püre şəklində uşaqlara bu tərəvəzlər verilməlidir".

"Çox zaman analar uşaqlara kök, alma püresi əvəzinə onun şirəsini verirlər. Çünki onlar düşünür ki, şirə uşaqlara daha faydalıdır. Bu əsla belə deyil. Pediatr məsləhəti mütləq olmalıdır. Çünki, uşaqlarda qida dözümsüzlüyü yaranır. Bunun da səbəbləri var. Buna görə də qarnir şəklində tərəvəzlərin püresini vermək lazımdır".

"Yəni, uşaqların qidası orqanik olmalıdır. Süni şəkərləmələr, boş karbohidratlar, hansı ki, şəkər və un məhsullarından hazırlanmış qidalar uşaqlarda obeziti, qan-damar sistemi problemlərini əmələ gətirir. Bu hətta şəkər xəstəliyinə də səbəb ola bilər. Buna görə də mən düşünürəm ki, uşaqlara səhərlər şirin çay əvəzinə meyvə, tərəvəz, çərəz, yumurta, ağartı məhsulları təqdim olunsa daha yaxşı olar. Gün ərzində balıq, toyuq və ət istifadəsini də günlərə bölməliyik. Həmçinin, qızartı məhsullarından da uşaqları uzaq tutmaq lazımdır".

hər uşaq üçün fərdi və böyüklərdən ayrı olan dəsmallardan istifadə olunmalıdır.

Valideynlər uşaqları tərbiyə etmək məqsədilə və yaxud hər hansı bir vərdişdən, davranışdan çəkindirmək üçün qorxudurlar ki, qorxu da immun sistemini aşağı salan faktorlardan biridir. Mütləq şəkildə uşaqları bu şəkildə stressə salmamaq lazımdır. Günlük uşağın qidasında mövsümi yerli meyvələr yer almalıdır. Buna payız, qış aylarının meyvələrindən almanı, çox faydalı olan narı, heyvanı göstərə bilərik. Bir gün ərzində üç ortaboy meyvə yeyilməsi məqsədəuyğundur. Təbii ki, sitrus meyvələri verəndə allergik reaksiyaların olub-olmadığını yoxlamaq lazımdır. Çalışmaq lazımdır ki, daha çox evdə hazırlanan ana yeməklərdən istifadə olunsun, restoran və kafelərdə mənşəyi bəlli olmayan yerlərdə hazırlanan yeməklər də uşaqlarda mədə-bağırsaq sisteminin, maddələr mübadiləsinin pozulmasına gətirib çıxarda bilər. Bu da çox zərərli hesab olunur.

Mütləq şəkildə günlük qidalarda kök, çuğundur kimi qidalar yer almalıdır. Yaxşı olar ki, bunları tərəvəz şəklində tam versinlər.

# Uşaqlar infeksiyaya yoluxmamaq üçün bu qidaları mütləq qəbul etməlidir



Sağlam qida mütəxəssisi Məhsəti Hüseynova isə fikirlərini bu cür ifadə edib: "Ümumiyyətlə, uşaqları infeksion xəstəliklərdən qorumaq üçün qidalanma çox önəmlidir. Amma ilk növbədə gigiyena qaydalarına önəm verək. Çünki əsasən infeksion xəstəliklər təmiz olmayan əllərdən də çox asanlıqla yoluxa bilir. Mütləq şəkildə əllər mütəmadi olaraq yuyulmalıdır. Xüsusilə uşaqlarla bayırda olanda, baxçadan, məktəbdən qayıdanda mütləq şəkildə əllər yuyulmalı, dırnaqlar qısa kəsilməlidir. Çünki uşaqlar daha tez-tez əlini ağzına, gözünə vurduğu üçün bu halda daha təhlükəli ola bilər. Mütləq şəkildə ən az yaşına görə 8-9-10 saat yuxu yatılmalıdır. Çünki infeksion xəstəliklər daha çox immun sistemi aşağı düşdükdə tez yoluxa bilir ki, bu hallar da immun sisteminin zəifləməsinə səbəbdir. Ona görə də mütləq bunlara diqqət etməliyik. Əllər təmiz yuyulduqda gigiyenik vasitələrdən dəsmal filan ortaq istifadə olunmamalıdır. Mütləq

Əgər bu şəkildə yemək olmursa onların birlikdə şirəsindən istifadə edə bilərlər. Bir stəkanı tam doldurmağa ehtiyac yoxdur.

Mütləq şəkildə həftədə 3 dəfə paxlalılardan istifadə olunmalıdır. Buna mərcimək, lobya, düyü, bulqur bu kimi qidalar aiddir ki, bunlardan istifadə etməlidirlər. Hər gün ərzində 15-20 fındıq təxminən 30, 5-6 qoz da təxminən 30 qram dəyərində istifadə olunmalıdır. Soyuq olsa belə açıq və günəşli havalarda D vitamini almaq vacibdir. Bundan başqa mütləq balıqdan da istifadə etməlidir ki, tərkibində D vitamini, omeqa 3 yağlarıdır və digər kalsium, selen, Evitamini və digər minerallar olur. Ona görə də balıqların həftədə 2-3 dəfə yeyilməsi daha çox məqsədəuyğundur.

Mütləq şəkildə karbohidratlardan istifadə edərkən daha çox faydalı karbohidratlardan istifadə etsinlər. Bəzən, un məmulatlarından olan şirniyyatlardan həddindən artıq çox istifadə olunur ki, bu da immun sisteminin aşağı düşməsinə səbəb olur. Yaxşı olar ki, çörəklər yerinə faydalı karbohidrat olaraq tam buğda çörəyi çovdar çörəyindən istifadə etsinlər və yaxud onlardan istifadə olunan makaronlardan da istifadə etmək olar. Hazır meyvə suları və qazlı içkilərdən uzaq dursalar daha yaxşıdır. Həddindən artıq qızardılmış yeməklərin verilməsi tövsiyə olunmur. Ət yeməklərinə də daha çox yağ əlavə edirlər, yağda qızardırlar ki, bu da uşaqlar üçün çox zərərlidir. Bu qaraciyər piylənməsinə gətirib çıxarır. Daha çox lifli qidalardan istifadə etmək lazımdır ki, bir çox hallarda uşaqların xüsusilə də keçid dövründə olanlara diqqət etmək lazımdır ki, bəzən çəki alır deyə qəbizlik problemini gözdən qaçırırlar.

Mütləq şəkildə hər gün bir dəfə də olsa uşaqlar böyük bayıra çıxmalıdır. Əgər çıxmırsa artıq burada problemin olduğunu düşünmək lazımdır. Ona görə lifli qidalara diqqət etmək lazımdır və mütləq şəkildə bədən temperaturunu normal qorumaq üçün və orqanizmdə gedən sağlamlıq proseslərinin funksiyalarının düzgün yerinə yetirilməsi üçün su miqdarını unutmamaq lazımdırş Uşaqların da öz bədən çəkisinə görə müəyyən miqdarda su miqdarı almaları vacibdir".

***Ayşən Vəli***

# Qara çay orqanizmi tonusda saxlamağa kömək edir



Çay kamelia sinensis bitkisinin qurulmuş yarpaqlarına isti su tökmək, çay yarpaqlarını dəmləmək və suya təam və ətir verməklə hazırlanan içkidir. Çayın tərkibində faydalı minerallar və C vitamini var. Ürək-damar xəstəliklərinə yaxşı təsir edir, həzm prosesini asanlaşdırır, dişləri çürüməyə qoymur. Amma bəzən yayda çay içməkdənsə su içməyə üstünlük verənlər də olur. Mütəxəssislər bildirirlər ki, çay içməyin mövsümü yoxdur, əksinə sərinlik gətirən vasitədir. Bir fincan isti çaydan sonra dərinin temperaturu 1-2 dərəcə endiyinə görə orqanizmdə sərinlik yaranır.

Həkimlərin dediyinə görə, hazırda pandemiya dövründə tez-tez çay içmək daha yaxşı olar. Həkim-diyetoloq Ləman Süleymanova isə AZƏRTAC-a bildirib ki, çay içmək tənəffüs yollarında hüceyrə mübadiləsinin intensiv getməsinə kömək edir, xəstəliklə mübarizəni asanlaşdırır, soyuqdəymə hallarında tərlədici və stimullaşdırıcı vasitə hesab olunur: "Qara çayın tərkibində tanin maddəsi var, onun antioksidant dəyəri yüksəkdir və orqanizmi tonusda saxlamağa kömək edir. Çayı yeməkdən yarım saat əvvəl, iki saat sonra qəbul etmək məsləhətdir. Dəmir defisitli anemiyadan əziyyət çəkənlər çay və qəhvə kimi içkilərdən az istifadə etməlidirlər".

Çayın dadına və ətrinə onun sortundan və keyfiyyətindən başqa suyun da yaxşı olması təsir edir. Dəmlənmiş çay çox qalanda ətrini və rəngini dəyişir, vitaminlər aktivliyini itirir. Təbii və təzə dəmlənmiş çay həm sağlamlığa, həm də əhval-ruhiyyəyə müsbət təsir göstərir.

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri,
Üzeyir Hacıbəyov
küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 4600**